QARABAĞ AZƏRBAYCANDIR!



# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 202 (6166) 13 noyabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan Konstitusiyasının 25 illiyi münasibətilə xalqımızı təbrik edib

Bax 4



Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində Azərbaycan Respublikası Konstitusiyasının 25 illiyi münasibətilə paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir.

## Mövlud Çavuşoğlu: "Atəşkəsi yenidən pozsalar, bədəlini ödəyərlər"

Bax 5



"Yenidən atəşkəsi pozsalar, bədəlini ödəyərlər". SİA xəbər verir ki, bu sözləri Türkiyə Xarici işlər naziri Mövlud Çavuşoğlu Bakıda keçirdiyi mətbuat konfransında deyib. Azərbaycanı zəfər münasibətilə təbrik edən M.Çavuşoğlu Azərbaycanın öz torpaqlarını azad etmək üçün uzun illər səbir göstərdiyini və diplomatiyaya olan...

## "Pakistan Observer" qəzeti: Müsəlman aləmində sözünü deyən lider meydana çıxdı



"Pakistan Observer" qəzetinin redaktoru Riyaz Əhməd Azərbaycan Prezidenti İlham Əliyevin "BBC News"a müsahibəsinə istinadla hazırlayıb dərc etdirdiyi məqaləsi üçün "Müsəlman aləmində sözünü deyən lider...

Bax 9

# Haqqın QALİBİ - AZƏRBAYCAN!!!

*Prezident İlham Əliyev: "İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq"*



Bax 2

## Ermәni barbarlığının növbəti sübutu: Kəlbəcərdən çıxarkən evləri və meşələri yandırırlar



## Sülhməramlıların əsas vəzifəsi nədən ibarət olacaq?



## Tezliklə Şuşada ASAN xidmət yaradılacaq




Bax 11

## İşğalçı Ermənistanda siyasi böhran: Dünyanın ikili standartları isə yenə qüvvədədir



Bax 7

## Xocavənd, Xankəndi və Xocalı sakinlərinə Azərbaycan pasportu veriləcək



Bax 7

# Haqqın QALİBİ - AZƏRBAYCAN!!!

## *Prezident İlham Əliyev: "İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq"*

**Döyüşlərdə bərkiyəcək, son sözünü demək üçün,**
**Haqq yolundan dönməyəcək, azadlığa yetmək üçün**

Bəli, bu gün məhz Azərbaycan Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyv cənablarının rəhbərliyi ilə rəşadətli Azərbaycan əsgəri döyüşlərdə qəhrəmancasına döyüşə-döyüşə bərkiyərək Güclü Ordumuzun gücü ilə Azərbaycan tarixinə qələbələr yazdı. Noyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ermənistanın sentyabrın 27-dən başlayan hərbi təxribatı zamanı döyüşlərdə bərkiyə-bərkiyə, azadlığa yetmək üçün haqq yolundan, Vətən yolunda canından keçərək yaralanan yaralanan və Müdafiə Nazirliyinin 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşü zamanı Vətən müharibəsinin parlaq qələbə müjdəsini çatdıraraq bu haqq yolunda qorxmadan şücaət göstərdiklərini bildirib: "Əziz hərbçilər, Vətən müharibəsi başa çatdı. Azərbaycan bu müharibədə parlaq qələbə qazandı, torpaqlarımız işğaldan azad olundu, işğalçıları torpaqlarımızdan qovmuşuq. Mən gəlmişəm ki, bu parlaq qələbə münasibətilə sizi şəxsən təbrik edim, sizə öz təşəkkürümü bildirim, Azərbaycan xalqının təşəkkürünü bildirim ki, siz qəhrəmancasına döyüşərək, düşmənin torpaqlarımızdan qovulmasında müstəsna xidmətlər göstərmisiniz, yaralanmısınız, öz həyatınızı risk altına atmısınız, böyük şücaət göstərmisiniz"



### Qəhrəman döyüşçülərimiz daim nəzarətim altında olacaqlar"

"Bu gün, müharibə başa çatandan dərhal sonra gəlmişəm ki, sizə öz hörmətimi ifadə edim. Sizin valideynlərinizə öz təşəkkürümü bildirim ki, dövlət üçün belə qəhrəman övladlar yetişdiriblər. Gəlmişəm ki, sizə şəxsən öz təşəkkürümü bildirim, sizi təbrik edim". Bunu Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev noyabrın 11-də 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşündə deyib.

"Mənim birinci təbrik etdiyim insanlar sizsiniz və sizin simanızda bizim bütün qəhrəman döyüşçülərimizdir. Gəlmişəm deyim ki, mən hər zaman sizinlə bir yerdə olacağam. Mənə arxalana bilərsiniz. Bizim qəhrəman döyüşçülərimiz gələcək həyatda da daim mənim nəzarətim altında olacaqlar. Bir daha sizi təbik edirəm, tezliklə sağalın, adi həyata qayıdın. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!", - dövlət başçısı qeyd edib.

### "Bu qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəridir"

Dövlət başçısı bildirib ki, bu qələbələrə gücümüz, birliyimiz, xalqımızın birliyi nəticəsində əldə olunduğunu bildirib: "Biz bir daha gücümüzü göstərdik, xalqımızın birliyini göstərdik. Göstərdik ki, heç bir qüvvə bizim qabağımızda dura bilməz, heç bir qüvvə bizi haqq yolumuzdan döndərə bilməz. Bu tarixi missiyanı siz icra etmisiniz - Azərbaycan əsgəri, Azərbaycan giziri, Azərbaycan zabiti icra edib. Əlbəttə ki, bizim güclü ordumuz var, texniki təchizat da yüksək səviyyədədir. Bütün dünya gördü ki, biz hansı texniki imkanlardan istifadə edirik. Onu da deyə bilərəm ki, bu gün bizim əldə etdiyimiz qələbə və apardığımız hərbi əməliyyatlar həm texniki imkanlar baxımından, eyni zamanda, operativ addımlar, əməliyyatların hazırlanması və icra edilməsi baxımından bütün dünyada öyrənilir".

Dövlət başçısı deyib ki, bu, yeni nəsil müharibə üsuludur, hansı ki, planlaşdırma, texniki təchizat, texnologiyaların tətbiqi, əməliyyatların düzgün planlaşdırılması və həyata keçirilməsi, hərbçilərimizin döyüş qabiliyyəti və mənəvi ruh birləşir, vəhdət təşkil edir: "Ancaq mən bunu artıq bir neçə dəfə demişəm, bu qələbəni qazanan bizim texniki vasitələr yox, əsgər və zabitlərimizdir. Onlar torpağımızı düşməndən qarış-qarış azad edə-edə bu Qələbəni, bu Zəfəri xalqımıza nəsib etdilər. Ona görə bu qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəridir, Azərbaycan zabitidir və hər kəs bunu bilməlidir. Biz sübut etdik ki, biz böyük xalqıq. Biz sübut etdik ki, biz həmrəylik göstəririk, birlik göstəririk və bu birlik onsuz da cəmiyyətdə var idi. Ancaq bu zəfərdən sonra bu, daha da yüksək səviyyəyə qalxdı. Bu birlik bizə imkan verəcək ki, işğaldan azad edilmiş torpaqlara yenidən həyat qaytaraq, məcburi köçkünlərimizi o yerlərə maksimum qısa müddət ərzində qaytaraq. Qarabağ bölgəsi, gözəl tarixi diyarımız sanki yenidən doğulacaq, yenidən canlanacaq, dirçələcək.

Azərbaycanın ayrılmaz hissəsi və ən gözəl güşələrindən biri olan Qarabağ əsl cənnət məkanına çevriləcəkdir".

Ali Baş Komandan İlham Əliyev onu da əlavə edib ki, xalqımızın duyğularını təsəvvür etmək çətin deyil: "Mən bu dönəmdə hər gün minlərlə məktub alıram. Sevinclə dolu, minnətdarlıqla dolu, qürur hissi ilə dolu məktublar məni doğrudan da çox duyğulandırır. Bu gün bizim televiziya kanallarımız, internet saytlarımız uzun illər məcburi köçkün həyatı yaşamış insanları, onların duyğularını, onların sözlərini ictimaiyyətə təqdim edəndə onların ən çox sevdiyi və dediyi ifadəni mən bildirmək istəyirəm. Deyir ki, artıq mən qaçqın deyiləm. Bilirsiniz bu, nə deməkdir? Bu, bəlkə də ən xoşbəxt anların təzahürüdür, həm bu insanların həyatında, həm bizim hamımızın həyatında və mənim həyatımda. Deyir ki, mən artıq köçkün, qaçqın deyiləm. Onlar bu daşı öz ətəyindən tökmək istəyirdilər. Onlar mənfur düşmən tərəfindən bizə yapışdırılmış belə bir ifadədən öz canlarını qurtarmaq istəyirdilər və bu gün gəldi". Bu qələbənin qazanılmasında bütün xalqımızın birlik, həmrəylik göstərdiyini deyən Ali Baş Komanda nonu da bildirib ki, atılan addımlar bütün bir məqsədi güdürdü ki, qısa müddət ərzində az itkilərlə düşmənə elə sarsıdıcı zərbə vuraraq, düşməni məcbub edərək torpaqlarımızdan çıxarmışıq: "Döyüş meydanında qazanılmış qələbələr siyasi müstəvidə də qələbənin qazanılmasını şərtləndirdi. Əgər döyüş meydanında biz bu qələbəni qazanmasaydıq, inanmıram ki, işğalçı qalan torpaqlardan çıxacaqdı. Necə ki, torpaqlarımızı 30 ilə yaxın müxtəlif yollarla işğal altında saxlamağa can atan düşmən bu işğalı əbədi etmək istəyirdi, biz danışıqlar yolu ilə də heç bir nəticə əldə edə bilməzdik. Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq. Mən xahiş edirəm ki, Vətən müharibəsində şəhid olmuş bizim bütün bacı-qardaşlarımızın xatirəsini yad edək, bir dəqiqə sükutla yad edək".

### "Bu qələbə Azərbaycan tarixində əbədi qalacaqdır"

"Bu qələbə Azərbaycan tarixində əbədi qalacaqdır. Həm döyüş meydanında, həm danışıqlar masası arxasında biz istədiyimizə nail ola bildik",-deyən dövlət başçısı bildirib ki, məhz güclü ordumuzun və rəşadətli əsgərlərimizin şücaəti ilə bu tarixi qələbəni qazandıq: "Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Şuşa şəhərlərini hərbi güc hesabına azad edə bilmişik. Bayrağımızı o torpaqlara sancmışıq, bayrağımızı dalğalandırmışıq. Bu gün bütün dünya gördü ki, Azərbaycanın gücü nədən ibarətdir. Həm siyasi sahədə, həm hərbi quruculuq sahəsində, hərbçilərimizin peşəkarlığı sayəsində biz müharibənin ilk günlərindən üstünlüyü əldə etdik və ardıcıllıqla bu son hədəfə qədər uğurla irəliləmişik. Döyüşlər şiddətli xarakter almışdı, düşmən müqavimət göstərirdi. Bunu da hər kəs bilsin, bu 44 gün ərzində əldə edilmiş qələbə bizim hərbçilərimizin peşəkarlığı, qəhrəmanlığı hesabına qazanılıb".

### "Yaralanmış hərbçilərimizi normal həyata qaytarmaq üçün bütün lazımı tədbirlər görüləcək"

"İndi həyatımızda yeni dövr başlayır. Bu dövr ölkəmizin xoşbəxt gələcəyini təmin edəcək. Sizin həyatınızda yeni dövr başlayır. Siz yaralanmısınız. Amma bilin ki, biz sizi sağaldacağıq. Ən ağır yaralanmış hərbçilərimizi həyata qaytaracağıq. Bizim həkimlərimiz indi gecə-gündüz çalışırlar. Bundan sonra da normal həyata qayıtmaq üçün bütün lazımı tədbirlər görüləcək",- deyən Prezident İlham Əliyev bildirib ki, yaralı hərbçilərə göstərilən dövlət qayğısı daima olacaq: "Bilirsiniz ki, Birinci Qarabağ müharibəsində əlini, qolunu, ayağını itirmiş hərbçilərimiz üçün Mehriban xanımın şəxsi təşəbbüsü və nəzarəti altında müasir protezlər gətirilir. O protezlər ki, insanlar o protezlərdən istifadə edib futbol da oynaya bilərlər. Bütün bunlar təmin ediləcək. Siz əmin ola bilərsiniz. Sizin gələcək həyatınızla bağlı mən bəri başdan bütün dövlət qurumlarına, özəl şirkətlərə müraciət edirəm, bildirirəm ki, hərbçilərimizi, qəhrəmanlıq göstərmiş, yaralanmış hərbçilərimizi işlə təmin etmək üçün xüsusi addımlar atılacaqdır. Biz bunu daim nəzərə alacağıq".

### "Bu qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəri, Azərbaycan zabitidir"

"Biz bir daha gücümüzü göstərdik, xalqımızın birliyini göstərdik. Göstərdik ki, heç bir qüvvə bizim qabağımızda dura bilməz, heç bir qüvvə bizi haqq yolumuzdan döndərə bilməz. Bu tarixi missiyanı siz icra etmisiniz - Azərbaycan əsgəri, Azərbaycan giziri, Azərbaycan zabiti icra edib". Bu fikirləri Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşündə ordumuzun gücündən danışarkən səsləndirib.

*Ardı Səh. 3*

# Haqqın QALİBİ - AZƏRBAYCAN!!!

## *Prezident İlham Əliyev: "İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq"*

Əvvəli Səh. 2



Dövlətimizin başçısı deyib: "Əlbəttə ki, bizim güclü ordumuz var, texniki təchizat da yüksək səviyyədədir. Bütün dünya gördü ki, biz hansı texniki imkanlardan istifadə edirik. Onu da deyə bilərəm ki, bu gün bizim əldə etdiyimiz qələbə və apardığımız hərbi əməliyyatlar həm texniki imkanlar baxımından, eyni zamanda, operativ addımlar, əməliyyatların hazırlanması və icra edilməsi baxımından bütün dünyada öyrənilir. Bu, yeni nəsil müharibə üsuludur, hansı ki, planlaşdırma, texniki təchizat, texnologiyaların tətbiqi, əməliyyatların düzgün planlaşdırılması və həyata keçirilməsi, hərbçilərimizin döyüş qabiliyyəti və mənəvi ruh birləşir, vəhdət təşkil edir".

Prezident qeyd edib ki, bu qələbəni qazanan bizim texniki vasitələr yox, əsgər və zabitlərimizdir: "Onlar torpağımızı düşməndən qarış-qarış azad edə-edə bu Qələbəni, bu Zəfəri xalqımıza nəsib etdilər. Ona görə bu qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəridir, Azərbaycan zabitidir və hər kəs bunu bilməlidir".

"Artıq birinci həftələrdən sonra dərk etdilər ki, bizim qabağımızda dura bilməyəcəklər. Ona görə beynəlxalq ictimaiyyətə daha fəal şəkildə müraciət etməyə başladılar ki, beynəlxalq təşkilatlar, bəzi ölkələr bizi dayandırsınlar. Mən isə deyirdim ki, heç kim bizi dayandıra bilməz, sona qədər gedəcəyik. Paşinyan şərtlərimi qəbul etməli, bəyan etməlidir ki, filan tarixdə filan rayonlardan çıxır və buna nail olduq",-deyən Ali Baş Komandan bildirib ki, bu bəyanat faktiki olaraq Ermənistanın sülh kapitulyasiya aktı idi: "Necə ki, vaxtilə İkinci Dünya müharibəsi başa çatandan sonra Hitlerin əlaltıları müttəfiq ölkələrin hərbi rəhbərlərinin qarşısında kapitulyasiya aktını imzalamışlar, mən də deyirdim ki, eyni qaydada Paşinyan canlı formatda, videokonfrans şəklində kapitulyasiya aktını imzalamalıdır. Amma açığını deyim, ondan sonra Rusiya Prezidenti Vladimir Putin məndən xahiş etdi ki, mən bu məsələdə çox da təkid etməyim. Mən hesab etdim ki, onsuz da Paşinyan kifayət qədər alçaldıldı, öz çirkin əməllərinə görə cəzalandırıldı, faktiki olaraq diz çökdü, mənim bütün şərtlərimi qəbul etdi. İmzalanmış bəyanatda Ağdam, Laçın, Kəlbəcər rayonlarından işğalçı qüvvələrin çıxarılmasının cədvəli də təsdiq olundu. Dedim etiraz etmirəm. Dedim getsin harada istəyir imzalasın, qaranlıq bir otaqda, bir anbarda, kameralardan uzaq bir yerdə imzalasın. Belə də oldu. Mənim və Prezident Putinin imzalanma mərasimini bütün Azərbaycan xalqı gördü. Paşinyan, sən harada imzalamısan bu sənədi? O qədər də əhəmiyyətli deyil. Çünki indi onu tapmaq mümkün deyil. Heç kim də soruşa bilməz, ay Paşinyan, sən bunu harada imzalamısan?".

### "Biz həm döyüş meydanında, həm danışıqlar masası arxasında istədiyimizə nail ola bildik"

"Bu qələbə Azərbaycan tarixində əbədi qalacaq. Həm döyüş meydanında, həm danışıqlar masası arxasında istədiyimizə nail ola bildik. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Şuşa şəhərlərini hərbi güc hesabına azad edə bilmişik. Bayrağımızı o torpaqlara sancmışıq, bayrağımızı dalğalandırmışıq. Bu gün bütün dünya gördü ki, Azərbaycanın gücü nədən ibarətdir. Həm siyasi sahədə, həm hərbi quruculuq sahəsində, hərbçilərimizin peşəkarlığı sayəsində biz müharibənin ilk günlərindən üstünlüyü əldə etdik və ardıcıllıqla bu son hədəfə qədər uğurla irəliləmişik". Bu fikri Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşündə bildirib: "Döyüşlər şiddətli xarakter almışdı, düşmən müqavimət göstərirdi. Bunu da hər kəs bilsin, bu 44 gün ərzində əldə edilmiş qələbə bizim hərbçilərimizin peşəkarlığı, qəhrəmanlığı hesabına qazanılıb. Düşmən işğal edilmiş torpaqlardan öz xoşu ilə çıxmaq istəmirdi və siz - bu döyüşlərdə fəal iştirak edən insanlar yaxşı bilirsiniz ki, 30 il ərzində hansı istehkamlar qurmuşdular. O istehkamları yarıb keçmək, o müdafiə xətlərini dəf etmək çox böyük qəhrəmanlıq və hərbi peşəkarlıq tələb edirdi".

Bölgənin coğrafiyasının özlüyündə bir istehkam olduğunu qeyd edən Prezident İlham Əliyev deyib: "Şuşa alınmaz qala sayılan bir şəhərdir. Pənahəli xan o şəhəri elə salmışdır ki, Şuşa sakinlərini düşməndən maksimum dərəcədə mühafizə edə bilsin. Şuşanı bir neçə gün ərzində az itkilərlə və şəhərə böyük zərər vurmadan almaq böyük peşəkarlıq, rəşadət rəmzidir".

### "İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq"

"Vətən müharibəsi başa çatdı. Azərbaycan bu müharibədə parlaq qələbə qazandı, torpaqlarımız işğaldan azad olundu, işğalçıları torpaqlarımızdan qovmuşuq. Mən gəlmişəm ki, bu parlaq qələbə münasibətilə sizi şəxsən təbrik edim, sizə öz təşəkkürümü və Azərbaycan xalqının təşəkkürünü bildirim. Siz qəhrəmancasına döyüşərək, düşmənin torpaqlarımızdan qovulmasında müstəsna xidmətlər göstərmisiniz, yaralanmısınız, öz həyatınızı risk altına atmısınız, böyük şücaət göstərmisiniz",- deyən dövlət başçısı bildirib ki, İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq: "Bu qələbənin qazanılmasında bütün xalqımız birlik, həmrəylik göstərmişdir. Atılan addımlar bütün bir məqsədi güdürdü ki, qısa müddət ərzində az itkilərlə düşmənə elə sarsıdıcı zərbə vuraq ki, düşmən məcbur olub torpaqlarımızdan çıxsın. Döyüş meydanında qazanılmış qələbələr siyasi müstəvidə də qələbənin qazanılmasını şərtləndirdi. Əgər döyüş meydanında biz bu qələbəni qazanmasaydıq, inanmıram ki, işğalçı qalan torpaqlardan çıxacaqdı. Necə ki, torpaqlarımızı 30 ilə yaxın müxtəlif yollarla işğal altında saxlamağa can atan düşmən bu işğalı əbədi etmək istəyirdi, biz danışıqlar yolu ilə də heç bir nəticə əldə edə bilməzdik. Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Allah sizə şəfa versin! Allah bütün yaralı əsgər və zabitlərimizə şəfa versin!". Dövlət başçısı yarralılarla görüşü zamanı İkinci Qarabağ müharibəsində, Vətən müharibəsi adlandırdığımız müharibədə şəhid olmuş insanların bütün problemlərinin həll olunacağının da bildirib: "Şəhid ailələrinin problemləri öz həllini tapacaq. Biz növbədə dayanan əksər şəhid ailələrimizin məişət problemlərini demək olar ki, həll etdik. Bu il 1500 şəhid ailəsi dövlət tərəfindən evlərlə, mənzillərlə təmin ediləcək. Bu gün buradan bizim bütün aidiyyəti qurumlarımıza göstəriş verirəm ki, İkinci Qarabağ müharibəsində, Vətən müharibəsi adlandırdığımız müharibədə şəhid olmuş insanların yaxınlarına qısa müddət ərzində həm maddi dəstək göstərilməlidir, eyni zamanda, indi onların uçotu aparılır. Dəqiq uçot aparılandan sonra onlara mənzillərin, evlərin verilməsi təmin ediləcəkdir".

### "Azərbaycanda yeni ordenlər və medallar təsis ediləcək"

"Mən bütün bu 44 gün ərzində, ondan əvvəl və ondan sonra döyüş meydanında, arxa cəbhədə qəhrəmanlıq göstərmiş hərbçilərimizi təltif edəcəyəm. Artıq müvafiq göstəriş verilibdir. Mən artıq göstəriş vermişəm və sizin qarşınızda bunu bəyan etmək istəyirəm ki, Azərbaycanda yeni ordenlər və medallar təsis ediləcək. Məhz Vətən müharibəsində fərqlənmiş hərbçilərə və mülki şəxslərə bu orden və medallar veriləcək",- deyən dövlət başçısı bildirib ki, bu orden və medalların adlarını da mən təklif etmişəm: "Hesab edirəm ki, bu adlar da sizin xoşunuza, Azərbaycan xalqının xoşuna gələcək. Göstəriş vermişəm ki, düşmənin qənimət götürülmüş hərbi texnikası Bakıya gətirilsin. Tapşırmışam ki, yer seçilsin, o texnikanı biz nümayiş etdirəcəyik. Bütün Azərbaycan xalqı gedib görəcək ki, biz nəyi əldə etmişik. Məhv edilmiş bəzi texnika elə vəziyyətdədir ki, indi onu gətirmək mümkün deyil. Amma bu məlumatı mən ardıcıl şəkildə xalqımıza təqdim edirdim ki, biz düşmənin nə qədər texnikasını məhv etdik. Faktiki olaraq onların ordusunda texnika qalmadı, ordusu demək olar ki, yoxdur. Özləri də bunu etiraf edirlər. Özləri də etiraf edirdilər ki, Azərbaycan onlara qalib gəldi. Yəni, qənimət götürülmüş o hərbi texnikanı nümayiş etdirəcəyik. Planlarım çoxdur. İnşallah, hamısını icra edəcəyik. Bu tarixi Qələbəmizi hüquqi müstəvidə, siyasi müstəvidə daha da möhkəmləndirəcəyik. Bundan sonra vətəndaşlarımız rahat yaşayacaqlar, öz doğma torpağına qayıdacaqlar. Azərbaycan sizin sayənizdə yeni bir dövrə qədəm qoyacaq.

Ona görə bu gün, müharibə başa çatandan dərhal sonra gəlmişəm ki, sizə öz hörmətimi ifadə edim. Sizin valideynlərinizə öz təşəkkürümü bildirim ki, dövlət üçün belə qəhrəman övladlar yetişdiriblər. Gəlmişəm ki, sizə şəxsən öz təşəkkürümü bildirim, sizi təbrik edim. Mənim birinci təbrik etdiyim insanlar sizsiniz və sizin simanızda bizim bütün qəhrəman döyüşçülərimizdir. Gəlmişəm deyim ki, mən hər zaman sizinlə bir yerdə olacağam. Mənə arxalana bilərsiniz. Bizim qəhrəman döyüşçülərimiz gələcək həyatda da daim mənim nəzarətim altında olacaqlar. Bir daha sizi təbik edirəm, tezliklə sağalın, adi həyata qayıdın. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

**RƏFİQƏ HUSEYNOVA**

## Prezident İlham Əliyev "Facebook" səhifəsində Konstitusiya Günü ilə bağlı paylaşım edib



Prezident İlham Əliyev rəsmi "Facebook" səhifəsində Azərbaycan Respublikası Konstitusiyasının 25 illiyi ilə bağlı paylaşım edib. Xatırladaq ki, müstəqil Azərbaycanın ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də keçirilmiş ümumxalq səsverməsi yolu ilə qəbul edilib. Dövlətimizin Əsas Qanunu həmin il noyabrın 27-də qüvvəyə minib.

## Əlcəzair Azərbaycanla siyasi, iqtisadi, humanitar, mədəni sahələrdə əlaqələrin inkişafında maraqlıdır



Noyabrın 12-də Milli Məclisin sədri Sahibə Qafarova Əlcəzair Xalq Demokratik Respublikasının ölkəmizdəki səfiri Salima Abdelhak ilə görüşüb. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Sahibə Qafarova Azərbaycanın ölkəmizin müstəqilliyini tanıyan ilk dövlətlərdən biri kimi Əlcəzairlə əlaqələrin inkişafına böyük önəm verdiyini bildirib. Milli Məclisin sədri bu görüşün ölkəmiz üçün əhəmiyyətli tarixi günlərin yaşandığı bir dönəmdə - Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etdiyi vaxtda baş tutduğunu diqqətə çatdırıb. Sahibə Qafarova ölkəmizin erməni işğalçılarına qarşı mübarizəsində tutduğu mövqeyə görə qarşı tərəfə minnətdarlığını bildirib.

Söhbət zamanı qeyd edilib ki, ölkələrimiz arasındakı münasibətlər qarşılıqlı hörmət və bərabərhüquqlu əməkdaşlıq prinsiplərinə söykənir. Parlamentlər səviyyəsində də müsbət inkişaf dinamikası mövcuddur. Ortaq maraqların olduğu beynəlxalq və regional məsələlərin həllində, xüsusilə Qoşulmama Hərəkatı çərçivəsində əlaqələrimiz davam etdirilir. Bu əməkdaşlıq sülhün, təhlükəsizliyin təmin olunması baxımından əhəmiyyətlidir.

Qeyd olunub ki, yüksək səviyyəli qarşılıqlı səfərlər və aparılan danışıqlar ikitərəfli münasibətlərin daha da dərinləşməsinə xidmət edir. Siyasi dialoqun inkişafı həyatın digər sahələrinə də öz təsirini göstərir. Biz parlamentlər səviyyəsində əlaqələrimizin inkişafında maraqlıyıq. Deputatlarımızın qarşılıqlı səfərlərinin ümumi işə töhfə verəcəyinə inanırıq.

Səmimi görüşə görə minnətdarlığını bildirən Əlcəzair Xalq Demokratik Respublikasının ölkəmizdəki səfiri Salima Abdelhak ölkəsinin Azərbaycanla siyasi, iqtisadi, humanitar, mədəni sahələrdə əlaqələrin inkişafında maraqlı olduğunu söyləyib. Səfir qeyd edib ki, siyasi dialoqun davamlılığı ikitərəfli və çoxtərəfli əməkdaşlığımızın daha da dərinləşməsinə töhfə verir.

Bildirilib ki, parlamentlər səviyyəsində münasibətlərin dərinləşməsi deputatlar tərəfindən müxtəlif platformalarda tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparmaq baxımından çox önəmlidir. Görüşdə gender bərabərliyi, cəmiyyətdə və siyasətdə qadınların rolu, COVID-19 pandemiyasına qarşı mübarizə barədə və tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

## İşğaldan azad olunan rayonların polis rəisləri komendant təyin edildi



İşğaldan azad olunan rayonların polis şöbələrinin rəisləri komendant təyin edilib. Bu barədə Daxili İşlər Nazirliyindən məlumat verilib. Məlumatda bildirilir ki, "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktya imzaladığı əmrlərlə işğaldan azad olunmuş rayonların polis şöbələrinin rəisləri həmin rayonların müvəqqəti komendantları təyin olunublar.Qeyd olunan Fərmandan irəli gələn digər vəzifələrin də icrası davam etdirilir.

## Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan Konstitusiyasının 25 illiyi münasibətilə xalqımızı təbrik edib



Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində Azərbaycan Respublikası Konstitusiyasının 25 illiyi münasibətilə paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir.

"Əziz həmvətənlər!

Azərbaycan Respublikası Konstitusiyasının 25 illiyi münasibətilə hamınızı səmimi-qəlbdən təbrik edir, hər birinizə ən xoş arzularımı çatdırıram! Ölkəmizin bu illər ərzində keçdiyi yol xalqımız üçün azadlıqdan, dövlət müstəqilliyindən, sarsılmaz birlikdən dəyərli heç nə olmadığını göstərdi! Azərbaycan xalqının həmrəyliyi və ölkəmizin müstəqilliyi əbədi olsun! Qoy Vətənimizdə həmişə sülh və əmin-amanlıq hökm sürsün! Uca Tanrı sevimli, doğma Azərbaycanımızı qorusun!".

## XİN: Dağlıq Qarabağda atəşkəsə nəzarət üzrə Birgə Rusiya-Türkiyə Mərkəzinin yaradılması ilə bağlı Memorandumu alqışlayırıq



Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri, Rusiya Federasiyasının Prezidenti tərəfindən imzalanmış birgə bəyanatdan irəli gələrək, Dağlıq Qarabağ münaqişə zonasında atəşkəsə və bütün hərbi əməliyyatların dayandırılmasına nəzarət üzrə Birgə Rusiya-Türkiyə Mərkəzinin yaradılması ilə bağlı noyabrın 11-də Memorandumun imzalanmasını alqışlayırıq.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib. Məlumatda, həmçinin deyilir: "Azərbaycan ərazisində yerləşəcək, atəşkəs rejiminə və bütün hərbi əməliyyatların dayandırılmasına nəzarəti həyata keçirəcək Birgə Mərkəzin işinin təşkili ilə əlaqədar ən qısa zamanda Birgə İşçi Qrupunun fəaliyyətə başlayacağını məmnunluqla qeyd edirik.

Birgə Mərkəzin fəaliyyətinin atəşkəs rejiminə nəzarətin səmərəliliyinin artırılmasına, beləliklə də bölgədə sülh və təhlükəsizliyin təmin olunmasına töhfə verəcəyinə inanırıq.

## Türkiyə və Rusiya arasında Dağlıq Qarabağda atəşkəsə nəzarət üzrə ortaq mərkəzin yaradılmasına dair memorandum imzalanıb




Türkiyə və Rusiya arasında Dağlıq Qarabağda atəşkəsə nəzarət üzrə ortaq mərkəzin yaradılmasına dair memorandum imzalanıb. AZƏRTAC xəbər verir ki, memorandumu videokonfrans formatında Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akar və Rusiya Federasiyasının müdafiə naziri Sergey Şoyqu imzalayıblar.

Qarabağ bölgəsində atəşkəsin və sabitliyin qorunmasında önəmli bir addım atıldığını vurğulayan türkiyəli nazir anlaşma üzrə həyata keçiriləcək fəaliyyətin bölgə üçün səmərəli və faydalı olmasını arzu edib. Memorandumda mərkəzin vəzifə və prinsipləri müəyyənləşdirilib.

Xatırladaq ki, atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə yaradılır. Mərkəzin yaradılması ilə bağlı müddəa Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatında yer alıb.

Birgə monitorinq mərkəzinin yaradılması qərarı tərəflərin hərbi əməliyyatların dayandırılması rejiminə uyğunluğuna etibarlı nəzarət etməyə imkan verəcək, həmçinin münaqişənin həlli üçün möhkəm zəmin yaradacaq.

Birgə mərkəz Azərbaycan ərazisində, atəşkəs rejiminə əməl olunması barədə məlumat toplayacaq, ümumiləşdirəcək və yoxlayacaq. Mərkəz müqavilələrin pozulması ilə bağlı hər hansı şikayət, sual və ya narahatlığın araşdırılması ilə məşğul olacaq.

## Mövlud Çavuşoğlu: "Atəşkəsi yenidən pozsalar, bədəlini ödəyərlər"



"Yenidən atəşkəsi pozsalar, bədəlini ödəyərlər". SİA xəbər verir ki, bu sözləri Türkiyə Xarici işlər naziri Mövlud Çavuşoğlu Bakıda keçirdiyi mətbuat konfransında deyib. Azərbaycanı zəfər münasibətilə təbrik edən M.Çavuşoğlu Azərbaycanın öz torpaqlarını azad etmək üçün uzun illər səbir göstərdiyini və diplomatiyaya olan inamını itirmək istəmədiyini bildirib.

Meydandakı qələbədən sonra Azərbaycan, Rusiya və Ermənistan arasında atəşkəs müqaviləsi imzalandığını söyləyən Çavuşoğlu daha əvvəl də 3 atəşkəs cəhdinin olduğunu, ancaq hamısının Ermənistan tərəfindən pozulduğunu xatırladıb. O, qeyd edib ki, son razılığa görə, indiyə qədər geri qaytardığı torpaqlara əlavə olaraq "5 + 2" bütün rayonların Azərbaycana təhvil verilməsiylə bağlı təqvim verilib: "Azərbaycan işğal olunmuş ərazilər və Qarabağ məsələsində hansı həll variantını seçərsə, biz onun yanında olacağıq. Bu müddətdə hər zaman "atəşkəs, atəşkəs" deyənlərə də bu cavabı verirdik. Bəli, atəşkəs olsun, ancaq atəşkəsi kimin pozduğunu görürsüz. Atəşkəs olduqdan sonra necə olacaq bəs. Bu problem həll olunmadıqca, Azərbaycanın işğal olunmuş əraziləri geri qaytarılmadıqca daimi atəşkəs olmayacaq. Problem həll olunmadıqca da gərginlik və qarşıdurmalar davam edəcək."

Nazir işğal olunmuş torpaqların geri qaytarılmasının son razılaşma ilə konkret bir cədvələ bağlı olduğunu ifadə edərək "Rusiyanın burada oynadığı rolu qiymətləndiririk. Hər iki tərəf arasında təşəbbüs göstərdilər. Dialoq davam etdi və bu razılaşma hər iki tərəfin də razılığı olduğu üçün imzalandı. Əsas bundan sonra atılacaq addımlardır. Bu müqavilənin 5-ci maddəsinə uyğun olaraq Rusiya ilə ortaq monitorinq və nəzarət mərkəzi və şöbələrinin açılması barədə razılığa gəldik" deyib.

Bu məsələnin təfərrüatlarını sabah Rusiyadan gələcək heyətlə müzakirə edəcəklərini söyləyən Çavuşoğlu sözlərinə belə davam edibi: "Monitorinq və nəzarət mərkəzi Azərbaycan torpaqlarında, Azərbaycanın uyğun hesab etdiyi yerlərdə yerləşəcək. Bu mərkəz vacib funksiyaları yerinə yetirəcək. Bölgədə müşahidə, PUA və digər elementlərlə monitorinq aparacaq. Şikayət və pozuntular olduqda araşdıracaq. Atəşkəs pozuntularının qarşısını almaq üçün tədbirlər görəcək. Bunun formalaşmasını və iş prinsiplərini ortaq işçi qrupu müəyyənləşdirəcək. Ancaq burada ən əsası ev sahibi ölkənin verdiyi səlahiyyətlər və göstərdiyi yerlər, digər detallar qardaş Azərbaycanla müəyyənləşdiriləcək".

M.Çavuşoğlu atəşkəsin və daha sonra qurulacaq mexanizmin davamlı sülhə və sabitliyə töhfə verməsini ümid etdiklərini vurğulayıb: "Ümid edirik ki, Ermənistan keçmiş səhvlərindən nəticə çıxarıb. Başqa bir ölkənin torpaqları üzərində hökmranlıq əbədi davam etməz. Ermənistan xalqı da bu prosesdən bəhrələnəcək. Qalıcı həll qardaş Azərbaycanın ərazi bütövlüyü, bu günə qədər qəbul edilmiş qərarlar və beynəlxalq hüquq çərçivəsində nəticələnməlidir. Bundan sonrakı müddətdə atılacaq adımlar məsələsində də Azərbaycanın istədiyi şəkildə onun yanında olacağıq. Atılacaq adımları birlikdə kordinasiya edəcəyik".

Dağlıq Qarabağ münaqişəsinin həlli prosesini həyata keçirən ATƏT-in Minsk Qrupunu da tənqid edən nazir bunları deyib: "Minsk üçlüyü, xüsusilə həmsədrlər bu prosesdən dərs almalıdırlar. Bir az əvvəl Rusiyanın atəşkəsdəki rolunu vurğuladım. ABŞ-da isə seçkilər var. Fransanın həmsədr olaraq bu prosesdə son dərəcə səhv və mənfi münasibət nümayiş etdirdiyini görürük. Hətta atəşkəsdən sonra belə tərəfli, mənfi açıqlamalar verirlər. Bu, həmsədrlərin 30 il ərzində problemi nə üçün həll edə bilmədiklərini göstərir. Tərəfsiz olmalıdırlar. Fransa obyektiv və balanslı mövqe nümayiş etdirmədi. Azərbaycanın müsbət mövqeyinə baxmayaraq Fransa həmişə Ermənistanı dəstəkləməyə davam etdi. Hətta Türkiyəni günahlandırmağa çalışırlar. Bu münasibət davam edərsə, bu cür ölkələr bu prosesdən kənarlaşdırılmalıdır. Sülh səylərini pozmağa çalışırlar. Bundan sonra heç bir ölkə haqsız Ermənistanı dəstəkləyərək bu prosesi pozmasın".

M.Çavuşoğlu Ermənistanın razılaşmaya əməl etməyəcəyi təqdirdə atılacaq addımlar barədə sualı belə cavablandırıb: "Atəşkəsdə Ermənistanın baş nazirinin imzası varmı? Var. Ən yüksək səviyyəli rəsminin imzası olduğu zaman o ölkəni də razılaşmaya təhkim edir. Atəşkəsi yenidən pozsalar, bədəlini ödəyərlər".

Razılaşmada Naxçıvana quru yolunun açılması ilə bağlı bir maddənin olduğunu xatırladan Çavuşoğlu Ermənistan da daxil olmaqla bütün region ölkələrinin bu dəhlizdən faydalanacağını, Ermənistanın qarşıdurma yaratmaq əvəzinə bölgənin rifahı və sabitliyini düşünməsinin vacibliyini vurğulayıb. O, Türkiyə və Rusiya arasında yaradılacaq ortaq monitorinq və nəzarət mərkəziylə bağlı "Burada Rusiyanın rolu nədirsə, Türkiyənin də rolu eyni olacaq" deyib. Azərbaycana Türk əsgərlərinin göndərilməsi ilə bağlı sualları da cavablandıran Çavuşoğlu "Ehtiyac olarsa qanun məclis tərəfindən qəbul edilər. Hesab edirəm ki, məsələ Azərbaycan olduqda qazi məclisimiz də bu müraciəti həvəslə dəstəkləyəcək", - deyə bildirib.

***Aysel Məmmədova***

## Josep Borrell: "Qarabağ razılaşması tələfatın qarşısını alacaq"



"Qarabağla bağlı razılaşma insan tələfatlarının qarşısını almağa kömək edəcək" SİA xəbər verir ki, Avropa Birliyi diplomatiyasının rəhbəri Josep Borrell, Dağlıq Qarabağda və ətrafında döyüşlərin dayandırılmasını alqışlayıb. "Bazar ertəsi günü Ermənistan və Azərbaycan arasında razılaşdırılmış Rusiyanın vasitəçiliyi ilə atəşkəs daha çox insan itkisinin qarşısını almağa kömək edəcək və ümid edirik ki, hərtərəfli tənzimləmə yolunda ilk addım olacaqdır. Danışıqlar artıq hər hansı bir həll müddətinin davamlılığını təmin etməlidir. Avropa Birliyi ATƏT-in Minsk Qrupu həmsədrlərinin rəhbərlik etdiyi müəyyən edilmiş formatı dəstəkləməyə davam edir və bu səylərə və bütün Cənubi Qafqaz bölgəsinin dinc və firavan inkişafı ilə bağlı razılaşmaların həyata keçirilməsinə töhfə verməyə hazırdır", deyə Josep Borrell bildirib.

## "Jewish Press": İsrailə Ermənistan kimi tərəfdaş həqiqətən lazımdırmı?



Ermənistanın baş naziri Nikol Paşinyan bu yaxınlarda İsrailə qarşı çıxış edərək deyib: "İsrail Azərbaycanın Ermənistanla münaqişəsində Azərbaycanı dəstəkləmək üçün Türkiyə, terrorçular və suriyalı muzdlularla birləşib. Bu ittifaqın nəticələri sonda İsrailin zərərinə olacaq".

44 gün davam etmiş döyüş əməliyyatları öz miqyasına və əhatə dairəsinə görə son illərdə ağır artilleriya, tank, raket və pilotsuz uçuş aparatlarından istifadə edilməklə baş verən vaxtaşırı eskalasiyaları üstələyirdi.

AZƏRTAC xəbər verir ki, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsraildəki nümayəndəliyinin rəhbəri, beynəlxalq münasibətlər üzrə tanınmış israilli ekspert Arye Qut bu barədə "Jewish Press" informasiya agentliyinin saytında dərc edilmiş "İsrailə Ermənistan kimi tərəfdaş həqiqətən lazımdırmı?" sərlövhəli məqaləsində yazıb.

İsrailli analitik vurğulayır: "Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə son günlərdə Azərbaycanın "Sderot"una (İsraildə şəhər) çevrilib, çünki Ermənistan silahlı qüvvələri Azərbaycanın dinc sakinlərini və digər qeyri-hərbi hədəflərini daim atəşə tutur. "Human Rights Watch" təşkilatı Ermənistanı Azərbaycanın dinc sakinlərinə qarşı kasetli bombalardan istifadə edilməsində təqsirləndirib. Bununla belə, Ermənistanın nəzərində təcavüzkarlar İsrail və Azərbaycandır".

Qutun fikrincə, Ermənistanın baş nazirinin diplomatik protokol və etiket anlayışlarından xəbəri yoxdur. Ekspert yazır: "Mən bilmək istərdim, Paşinyanın Rusiya Prezidenti Vladimir Putin ilə bu cür danışmağa cəsarəti çatarmı? Bu gün İsrail Dövlətini və onun müttəfiqlərini "Qarabağda ermənilərə qarşı soyqırımı törətməkdə" saxta ittiham edən Ermənistan kimi tərəfdaş və ya müttəfiqlər İsrailə yəqin ki, lazım deyil".

İsrailli analitikin fikrincə, Xocalı soyqırımını inkar edən Ermənistanın baş nazirinin "soyqırımı" sözünü işlətməyə haqqı yoxdur. Arye Qut "Jewish Press" nəşrində dərc edilmiş məqaləsində yazır: "Ona xatırlatmaq istəyirəm ki, 1992-ci ilin fevralında məhz Ermənistan Azərbaycanın Xocalı şəhərinin dinc əhalisinə qarşı soyqırımı aktı törədib. Belə amansız etnik təmizləmə aktlarından birində Ermənistan silahlı qüvvələri tərəfindən bir gecədə aralarında 63 uşaq, 106 qadın və 70 ahıl şəxsin olduğu 613 nəfər qətlə yetirilib, bundan əlavə, 487 nəfər şikəst edilib, 1275 əsir götürülüb, aralarında 68 qadın və 26 uşağın olduğu 152 nəfər isə itkin düşüb. 8 ailə bütövlükdə məhv edilib, 25 uşaq hər iki valideynini itirib, yüzlərlə şəxs zorakılığa və işgəncəyə məruz qalıb. O dəhşətli fevral gecəsində baş vermiş real hadisələr sənədli videomateriallar, həmin vaxt bu şəhərdə olmuş xarici jurnalistlərin və ekspertlərin şahid ifadələri ilə təsdiqlənib. Bu azərbaycanlıların belə qəddarlığa məruz qalmasının yeganə "səbəbi" onların azərbaycanlı olması idi".

Ermənistanın keçmiş baş naziri Serj Sarkisyan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar britaniyalı jurnalist Tomas de Vaala verdiyi, "Qarabağ: Ermənistan və Azərbaycan sülh və hərb yolunda" adlı kitaba daxil edilmiş müsahibəsində Xocalı qırğınından söhbət açaraq deyib: "Xocalı hadisələrinə qədər azərbaycanlılar fikirləşirdilər ki, biz onlarla zarafat edirik. Onlar zənn edirdilər ki, ermənilər dinc əhaliyə əl qaldıra bilməyən bir xalqdır. Biz bu stereotipi aradan qaldırdıq və bunlar baş verdi".

Qut qeyd edir ki, Bosniya və Herseqovina, Honduras, Kolumbiya, Çexiya, Qvatemala, İordaniya, Meksika, Panama, Peru, Pakistan, Rumıniya, Serbiya və Sudan hökumətləri Xocalıda törədilmiş soyqırımına görə Ermənistanı rəsmən pisləyib və bu soyqırımına ədalətli münasibət göstərilməsini tələb ediblər. ABŞ-ın 20-dən çox ştatı da Xocalı soyqırımını pisləyən qətnamələr qəbul ediblər.

İsrailli ekspert yazır: "1918-ci ildə Azərbaycanın Quba rayonunda ermənilər tərəfindən 3000 yəhudi və azərbaycanlının məhv edilməsini heç vaxt unutmayacağıq. Onu da unutmaq olmaz ki, Ermənistanın əvvəlki hakimiyyət orqanları alman faşistlərinə Qaregin Njde ləqəbi ilə xidmət etmiş faşist və cəllad Qaregin Ter-Arutyunyana Yerevanın mərkəzində heykəl qoyublar. Təəssüf ki, Ermənistanın yeni hökuməti bu heykəli oradan götürməyib. Lakin biz susmamalıyıq, deməliyik ki, Holokost dövründə törədilmiş cinayətlərdə əli olmuş bir insan hər hansı ölkənin milli qəhrəmanı kimi qələmə verilməməlidir. Məgər bundan sonra biz müasir Ermənistanda erməni faşist və antisemitin milli qəhrəman dərəcəsinə ucaldılmasına, bundan sonra ermənilərin bizə, israillilərə vicdan, mənəviyyat və ədalət dərsi keçmək cəhdlərinə laqeyd qala bilərikmi?"

Ermənistanın Azərbaycana hücumları nəticəsində evlər dağılıb, uşaqlar yetim qalıb, neçə-neçə insan şikəst olub. Üstəlik, İsraildəki Sderot şəhəri kimi Azərbaycanın Gəncə şəhəri də cəbhə xəttindən uzaqda yerləşir. Arye Qut yazır: "Lakin təəssüf ki, dünyada çoxsaylı KİV-lər Ermənistanı deyil, Azərbaycanı təcavüzkar elan edir. Hərçənd, 30 ildən çoxdur məhz Azərbaycan erməni təcavüzünün qurbanıdır. BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 nömrəli qətnamələrində vurğulandığı kimi, Dağlıq Qarabağ Azərbaycanın beynəlxalq aləmdə tanınmış ərazisidir, Ermənistan bu əraziləri qeyd-şərtsiz azad etməlidir".

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsraildəki nümayəndəliyinin rəhbəri, beynəlxalq münasibətlər üzrə tanınmış israilli ekspert Arye Qut "Jewish Press" informasiya agentliyinin saytında dərc edilmiş məqaləsinin sonunda yazır: "Geosiyasətdən başı çıxmayan zavallı Paşinyan nə vaxtdan İsrailin xarici siyasəti barədə məsləhətlər verməyə başlayıb? Paşinyan unudur ki, İsrail Yaxın Şərq regionunda hərəkətverici qüvvə və innovasiyalı aktordur. Siyasətçi nə qədər məhdud olmalıdır ki, dünyəvi müsəlman ölkəsi olan Azərbaycanı və dünyada yeganə yəhudi ölkəsi olan İsrail Dövlətini terrorçuları dəstəkləməkdə ittiham etsin!"

## Pakistan Azərbaycanı təbrik edib



Pakistan Xarici İşlər Nazirliyi Dağlıq Qarabağ regionunda əldə olunan atəşkəsdən məmnuniyyət duyulduğu ifadə edən açıqlama yayıb. Azərbaycanın Pakistandakı səfirliyindən SİA-ya verilən məlumata görə, açıqlamada deyilir: "Pakistan daim Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq nizamlanmasını dəstəkləyib.Tərəflərin hərbi əməliyyatları dayandırmasını elan etmələrini alqışlayırıq. Rusiya Federasiyasının vasitəçiliyi ilə əldə edilmiş üçtərəfli razılaşma Cənubi Qafqaz regionunda sülhün bərqərar olması üçün yeni bir fürsət yaradır. Azərbaycan hökumətini və qardaş xalqını ərazilərinin azad edilməsi münasibətilə təbrik edirik. Bunun bölgədəki sabitlik və firavanlıq dövrünə, məcburi köçkünlərin öz dədə-baba torpaqlarına qayıtmasına yol açacağına ümid edirik."

## Eldar İbrahimov: "Qələbəmizin baş memarı Azərbaycan Prezidenti İlham Əliyevdir"



"Şovinizm, faşizm, "erməniçilik" xəstəliyinə yoluxmuş mənfur qonşularımızın əsassız ərazi iddiaları, növbəti qəsbkarlıq niyyətləri üzündən 30 il öncə başlanmış Dağlıq Qarabağ münaqişəsinə son qoyuldu. Bu ilin noyabr ayının 9-dan 10-na keçən gecə sülhə məcburetmə ilə təcavüzkar Ermənistanın işğalçılıq siyasətinə, Azərbaycan torpaqlarının son 30 il ərzində davam edən işğalına son qoyuldu. Rusiya, Azərbaycan prezidentlərinin və Ermənistan baş nazirinin imzaladığı 9 bəndlik bəyanatla işğalçı Ermənistan sülhə məcbur edildi, təslim oldu". Bu fikirləri SİA-ya Milli Məclisin İntizam komissiyasının sədri, Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin üzvü Eldar İbrahimov deyib.

Eldar İbrahimov bildirib ki, Ermənistanın bitməyən fitnəkarlığı, xüsusilə sentyabrın 27-də etdiyi növbəti təxribatçı addımları nəticəsində bütün cəbhəboyu başladılmış əks-hücum əməliyyatları, İkinci Qarabağ savaşı cəmi 44 gündən sonra tarixi qələbəmizlə başa çatdı. 30 ildir davam edən qanlı münaqişəyə cəmi 44 günlük müharibə - Vətən müharibəsi ilə son, nöqtə qoyuldu. Onun sözlərinə görə, iki gündür artıq top, raket, silah səsləri gəlmir, kəndlərimiz, qəsəbələrimiz, rayon və şəhərlərimiz atəşə tutulmur, evlər dağılmır, insanlarımız, vətəndaşlarımız yaralanmır, xəsarət almır, həlak olmur. İki gündür insanlarımızın gözlərindən yalnız və yalnız sevinc, qələbə, zəfər göz yaşları axır, sevinc-sevincə qarışır, hamı qalib xalqın, qalib Vətənin övladları kimi, alnı açıq, başı dik gəzir, möhtəşəm qələbəni, zəfəri qeyd edirik.

E.İbrahimov ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin noyabrın 10-da Azərbaycan xalqına müraciətindən bəzi məqamları da xatırladıb: "Müharibədən əvvəl deyəndə ki, mən bilirəm nəyi nə vaxt etmək lazımdır, əminəm ki, xalqımızın mütləq əksəriyyəti başa düşürdü mən nəyi nəzərdə tuturam və səbirlə bu günü gözləyirdi, mənə inanırdı, Prezident kimi, Ali Baş Komandan kimi inanırdı, gözləyirdi və bu gün gəldi. Dedik yetər artıq, bu əsarət yetər! Bizim şəhərlərimiz əsarət altında nə qədər qalacaq?! Mənfur düşmən bizim təbiətimizi nə qədər murdarlayacaq, bizim torpağımızda gəzəcək, yeyəcək, içəcək, rəqs edəcək, bizi təhqir edəcək. Dedik ki, düşmənə yerini göstərəcəyik, düşməni torpaqlarımızdan qovacağıq və qovduq da!. Bəli, yağı düşmən torpaqlarımızdan iti qovan kimi qovuldu, işğal sona yetirildi. İndi bundan böyük xoşbəxtlik, bundan böyük səadət, bundan böyük hadisə ola bilərmi? Əlbəttə ki, yox! Bütün bunlara görə, müzəffər Ali Baş Komandan, böyük sərkərdə İlham Heydər oğlu Əliyevə borcluyuq. Bunları bizlərə yaşadan məhz cənab Prezident, qəhrəman Ali Baş Komandan oldu. Bu qələbənin baş memarı məhz cənab İlham Əliyevdir".

YAP İdarə Heyətinin üzvü qeyd edib ki, dövlətimizin başçısının cəsarəti, qətiyyəti, tükənməz enerjisi və möhkəm iradəsi sayəsində Qarabağımızda, Cəbrayılımızda, Füzulimizdə, Zəngilanımızda, Qubadlımızda, qədim Şuşamızda, 300-ə yaxın kənd və qəsəbəmizdə, onlarla strateji yüksəkliklərimizdə müqəddəs üçrəngli bayrağımız dalğalanır. Noyabrın 10-da imzalanmış tarixi bəyanatla bu ayın 15-dək Kəlbəcər, onun ardınca isə dekabrın 1-dək isə Ağdam və Laçın rayonları qansız-qadasız işğaldan azad olunacaq, öz sahiblərinə qaytarılacaq. Şübhəsiz ki, bu prosesdə, qələbəmizin qazanılmasında qardaş Türkiyənin siyasi və mənəvi dəstəyinin çox böyük əhəmiyyəti oldu. Bu fakt bir daha Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamının əyani göstəricisidir.

"27 ildən çoxdur əzablı, məşəqqətli məcburi köçkünlük həyatı yaşayan insanlarımız öz doğma yurd yerlərinə qayıdıb yaşayacaqlar. Azərbaycanın həmin guşələri yenidən dirçələcək, yurd yerlərimiz, işğaldan azad olunmuş ərazilərimiz yenidən qaynar həyatına dönəcək. Bu sevinci, qüruru bizlərə yaşatdığına görə ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevə, qəhrəman hərbçilərimizə minnətdarıq. Vətən uğrunda canını qurban vermiş şəhidlərimizin ruhu qarşısında baş əyirik", - deyə E.İbrahimov vurğulayıb.

## Hulusi Kılıç: Qazandığı Qələbə can Azərbaycanın gücünə güc qatdı



Azərbaycan şanlı bir zəfərlə onillikləri əhatə edən "yenilməz erməni" mifini darmadağın edib öz torpaqlarına torpağına döndü. Qəhrəman əsgərlərimiz cəbhədə qazandığı Qələbə ilə siyasi və diplomatik masada can Azərbaycanın gücünə güc qatdı. Türkiyənin atəşkəs missiyasında tərəf olması hər iki qardaş ölkənin strateji maraqlarını tamamladı. Bütün bu uğurlara görə Ali Baş Komandan, Prezident İlham Əliyevin timsalında bütün hərbçilərimizi, şəhid və qazilərimizin ailələrini təbrik edir və onlara təşəkkürümü ifadə edirəm.

Bu fikirləri Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç AZƏRTAC-a müsahibəsində bildirib.

Azərbaycana bağlı bütün işlərə eynilə öz vətəninin və xalqının məsələsi kimi yanaşdığını diqqətə çatdıran səfir Hulusi Kılıç deyib: "Azərbaycan əsgəri 44 günlük savaşda qanı, canı və sağlamlığı bahasına bizlərə bu şərəfli qalibiyyəti qazandırdı. Nəticəyə görə, Azərbaycanın ərazi bütövlüyü təmin edilir, qaçqın və məcburi köçkünlər öz yurdlarına dönür, Naxçıvanla Azərbaycanın əsas hissəsi arasında quru əlaqələri bərpa olunur. Lakin bunların hamısından əsas odur ki, Prezident İlham Əliyevinin qətiyyəti və düzgün siyasəti nəticəsində qürurumuzun öz yerini almasıdır. Azərbaycan xalqı hər zaman qürurlu və şücaətli olub. Lakin işğal faktı milli kimliyimizin üstünə ləkə salmışdı. Bu ləkənin təmizlənməsi istiqamətində göstərilən şücaətin dəyərini tarix daha düzgün verəcək".

Azərbaycan-Türkiyə münasibətlərinin ən yüksək səviyyədə inkişaf dinamikasında olduğunu diqqətə çatdıran diplomat bildirib: "Türkiyənin atəşkəs prosesində Rusiya ilə bərabər iştirak etməsi rəsmi Ankara ilə Bakının regional proseslərə birgə təsirini gücləndirəcək. Ən yaxın zamanlarda Azərbaycan və Türkiyən liderliyi ilə yeni beynəlxalq iqtisadi layihələrin şahidi ola bilərik. Ən əsası, Azərbaycan rəşadətli hərbi qələbəsi ilə bölgəyə sülh, inkişaf və tərəqqi bəxş etdi".

## Polad Bülbüloğlu: Azərbaycan bir daha öz torpağında separatizm toxumlarının cücərməsinə imkan verməyəcək



Qarabağda doğma ocaqlarından qovulan bütün azərbaycanlı qaçqınlar və məcburi köçkünlər öz evlərinə qaytarılacaq. AZƏRTAC xəbər verir ki, bu barədə "RİA Novosti"yə Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu bildirib.

O deyib: "Mən özüm Qarabağdanam və oraya getmək arzusundayam. Orada mənim atamın evi dağıdılıb, bu evi bərpa etmək lazımdır. Şuşada görüləsi çox işlər var. Bir vaxtlar Şuşada dahi şairə Natəvanın, Azərbaycanın dahi bəstəkarı Üzeyir Hacıbəylinin, mənim atamın, - o, SSRİ-nin Xalq artisti, Stalin mükafatı laureatı, professor, vokal məktəbinin banisi olub və Şuşada doğulub, - büstləri ermənilər tərəfindən güllələnib. Bu abidələr atəşə tutulub və Ermənistan ərazisinə aparılıb. Onları Bakıya qaytarmaq mümkün olub. Fikrimcə, məsələlərdən biri də bu abidələri Şuşaya qaytarmaq olacaq".

"Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına Türkiyənin guya həddən artıq maraq göstərməsi və vasitəçilərin qərəzsiz mövqe tutmalı olması" barədə suala cavabında səfir bu sualı ən əvvəl Fransaya verməyi təklif edib. Diplomat deyib: "Fransa o dərəcədə qərəzli mövqe tutur ki, hətta məsələnin həllindən sonra Fransa XİN tamamilə qəbuledilməz bəyanatlar verir. Yaxud da bu sualı Ermənistanın nümayəndəsi kimi yorulmadan fəaliyyət göstərən c Makrona verin. Əlbəttə, vasitəçilər neytral olmalıdırlar. Rusiyada da Ermənistana simpatiya bəsləyən insanlar həddən artıqdır və onlar Azərbaycan torpaqlarının işğalının davam etməsi üçün əllərindən gələni edirlər".

P.Bülbüloğlunun fikrincə, erməni-türk münasibətləri ilə bağlı məsələləri bu iki ölkə özü həll etməlidir. Türkiyə tarixçilərdən ibarət komissiyanı yaratmağı, arxivləri açmağı dəfələrlə təklif edib. "Hesab edirəm ki, tarixi tarixçilərin öhdəsinə buraxmaq lazımdır. Bir var de-fakto siyasəti, bir də var bu günün reallıqları və onları əsas götürmək lazımdır. Bu gün Türkiyədə milyona yaxın erməni yaşayır, onlar Türkiyədə kifayət qədər firavan yaşayırlar, İstanbulda əsasən ermənilərin yaşadığı məhəllə var. Türkiyədə təxminən yüz min erməni işləyir. Ermənistan Türkiyə ilə konfrontasiyadan nə qazanır? Heç nə. Türkiyə ilə konfrontasiya nə qədər davam edərsə, Ermənistanın vəziyyəti bir o qədər pis olar", - deyə səfir vurğulayıb. Diplomat, həmçinin guya Azərbaycan tərəfdə döyüşən suriyalı muzdlular məsələsinə də toxunub. O qeyd edib ki, Rusiyanın rəsmi şəxsləri muzdlular barədə danışanda bir dəfə də olsun onların kim tərəfdə vuruşduğunu xatırlatmayıblar. P.Bülbüloğlu əlavə edib ki, Azərbaycan səfirliyinin Rusiyanın müvafiq orqanlarına göndərdiyi sənəddə Qarabağda erməni tərəfində döyüşən muzdlular barədə Azərbaycan tərəfi dəqiq informasiyanı təqdim edib. Polad Bülbüloğlu erməni tərəfinə müraciət edərək deyib: "Ermənistan işğaldan nə qazandı? Yarıboş Qarabağ bundan nə qazandı? Biz Qarabağın kənd və şəhərlərinin hansı vəziyyətdə olmasını dünya ictimaiyyətinə təqdim edəcəyik".

Diplomat həmçinin diqqətə çatdırıb ki, bütün dünyada, o cümlədən Rusiyada separatçı qüvvələrlə mübarizə aparırlar, Azərbaycan da Rusiya kimi çoxmillətli, çoxkonfessiyalı ölkədir və bir daha öz torpağında separatizm toxumlarının cücərməsinə imkan verməyəcək.

## Milli Məclisdə Fransa Milli Assambleyasının nümayəndə heyəti ilə görüş olub



Noyabrın 12-də Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri ölkəmizdə səfərdə olan Fransa Milli Assambleyasının nümayəndə heyəti ilə görüşüblər. SİA xəbər verir ki, görüşdə işçi qrupunun rəhbəri Soltan Məmmədov Milli Məclisdə Fransa ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun 1997-ci ildən fəaliyyət göstərdiyini qeyd edib. Bildirib ki, 2010-2017-ci illərdə bu qrupa hazırda Azərbaycanın Birinci vitse-prezidenti olan Mehriban xanım Əliyeva başçılıq edib. Heydər Əliyev Fondunun xətti ilə Fransada bir sıra mühüm layihələr həyata keçirilib. Altıncı çağırış Milli Məclisdə Fransa ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupuna 20 deputat daxildir.

Sonra Soltan Məmmədov Azərbaycanın Vətən müharibəsi haqqında qonaqlara məlumat verərək deyib ki, sentyabrın 27-də işğalçı Ermənistanın dinc yaşayış məntəqələrimizə hücumundan sonra əks-hücum əməliyyatına başlayan Azərbaycan Ordusu qısa müddətdə uzun illərdir işğal altında qalan torpaqlarımızın xeyli hissəsini azad etdi. Təəssüf ki, həmin günlərdə ATƏT-in Minsk qrupunun üç həmsədrindən biri olan Fransa neytrallığını qoruya bilməyib və birtərəfli mövqe ifadə edib. Bu da Azərbaycan cəmiyyətində böyük narazılıq yaradıb. İşçi qrupun rəhbəri erməni silahlı qüvvələrinin Gəncə, Bərdə, Tərtər və digər bölgələrimizdəki dinc yaşayış məntəqələrinə, mülki şəxslərə qarşı törətdiyi hərbi cinayətlər barədə konkret faktları qonaqların diqqətinə çatdırıb.

Görüşdə çıxış edən Fransa Milli Assambleyasında Azərbaycanla dostluq qrupunun vitse-prezidenti Jerom Lamber həmin günlərdə Azərbaycan həqiqətlərini dünyada yaymaq istiqamətində və Fransadakı erməni diasporuna qarşı apardıqları informasiya və təbliğat işləri barədə danışıb. O, mətbuatda və sosial mediada yaydığı bir sıra məqalələrə bağlı ermənilərdən 20 mindən çox mənfi reaksiya, hətta təhdid dolu mesajlar aldığını bildirib.Daha sonra görüşdə Fransa Milli Assambleyasında Azərbaycanla dostluq qrupunun vitse-prezidenti Mişel Viale fikirlərini bölüşüb, bəzi həmkarlarının laqeyd və ya birtərəfli mövqeyinə görə təəssüflərini ifadə edib. Vurğulayıb ki, dostluq qruplarının vəzifəsi belə hallarda öz münasibətini bildirməkdir. Mişel Viale 10 noyabr tarixinin Azərbaycan tarixində mühüm hadisə olduğunu söyləyib.

# İşğalçı Ermənistanda siyasi böhran: Dünyanın ikili standartları isə yenə qüvvədədir

*Paşinyan iki il yarım əvvəl vəd etdiyi "demokratiya"yerinə qan-qada, müharibə və diktatorluq rejimi gətirib*

*İşğalçı Ermənistanın Qarabağ cəbhəsində uğradığı sarsıdıcı məğlubiyyətindən sonra bu ölkədə yaranmış ağır siyasi böhran və qeyri-stabil vəziyyət böyük xalq narazılığına səbəb olmaqdadır. Xüsusilə, Rusiya və Azərbaycan prezidentlərinin, habelə Ermənistanın baş nazirinin imzaladıqları atəşkəs bəyannaməsinin ardınca işğalçı ölkəyə aid silahlı birləşmələrin müəyyən olunmuş qrafik əsasında ərazilərimizdən çıxarılması faktı kəskin fikir ayrılıqları ilə müşahidə olunmaqdadır. Məhz bu fakt baş verər-verməz Ermənistandakı siyasi qüvvələr, daha dəqiq desək, 17 partiya birgə bəyanatla çıxış edərək Nikol Paşinyanın istefasını tələb etdilər. Onlar təslimçi sülh sənədini qəbul etmədiklərini, hakimiyyətin dəyişdirilərək, yeni güclərə təhvil veirlməsini, sənəddən isə imtina edilməsini irəli sürdülər.*



*Bəhruz QULİYEV, "SƏS" qəzetinin baş redaktoru, fəlsəfə üzrə fəlsəfə doktoru*

### Ermənistanın məğlub baş naziri özünə "haqq" qazandırmaqdan ötrü yenidən "günahkar keçi" axtarışına çıxdı

Cəmi iki il yarım əvvəl Serj Sarqsyan iqtidarını Soros fondunun xeyir-duası və "məxməri inqilab" vasitəsi ilə küçələrdən gələrək dəyişməyə müvəffəq olan Paşinyan indi özü seyt-not vəziyyətinə düşməklə küçələrdən "Rədd ol, Paşinyan!" şüarları ilə qarşı-qarşıya qalmaqdadır. Düzdür, məlum sənəd imzalandıqdan sonra deyilənlərə görə bir-iki gün ABŞ səfirliyində gizlənməklə canını linç olunmaqdan qurtaran, hətta Hitlersayağı bunkerdə belə, "Facebook" vasitəsi ilə canlı yayıma çıxıb məğlubiyyəti xalqının adına yazan erməni baş naziri planını dəyişdi. Artıq ortaya çıxaraq, Ermənistanın prezidenti Armen Sarkisyanla görüş keçirəndən dərhal sonra yenidən sosial şəbəkələr vasitəsi ilə xalqa pafoslu müraciət ünvanlayan Nikol Paşinyan özünə "haqq" qazandırmaqdan ötrü yenidən "günahkar keçi" axtarışına çıxdı. Ancaq bu kimi üsulun da baş tutmadığını tam anladıqda sözü ötürdü hələ ki, hakimiyyətinin nəzarətində qalan güc strukturlarına - xüsusi təyinatlı polis dəstələrinə.

### Ən əsas məsələ isə, 17 partiyadan olan 10 siyasi təşkilat liderinin həbslərə məruz qalmaları faktıdır

Ermənistan KİV-lərindən öyrəndiyimiz kimi, artıq yüzlərlə etirazçı həbs olunur, polis zorakılığı tətbiq edilir, habelə Milli Təhlükəsizlik Xidməti mitinq və aksiyalarda iştirak edən şəxsləri evlərindən çıxararaq naməlum istiqamətlərə aparırlar. Üstəlik, Azərbaycan ərazilərində müxtəlif vasitələrlə məskunlamış və Qarabağdan köçən ermənilər də necə deyərlər, Paşinyandan hesabat tələb edirlər. Ən əsas məsələ isə, 17 partiyadan olan 10 siyasi təşkilat liderinin həbslərə məruz qalmaları faktıdır. Onların içində Qagik Tsarukyan, Eduard Şarmazanov, keçmiş Milli Təhlükəsizlik Xidmətinin direktoru, Paşinyanın sabiq ailəvi dostu, hazırda müxalifətin "Vətən" partiyasının lideri Artur Vanetsyan və bir çox digər tanınmış erməni siyasətçiləri yer almaqdadırlar. Beləliklə, ölkəsinə "demokratiya" və "azadlıq" gətirəcəyini vəd edən Paşinyan bütün bunların yerinə qan-qada, müharibə və diktatorluq rejimi gətirib. Məğlub hakimiyyət və məğlub xalq sözün əsl mənasında çalxalanır.

### Hansı səbəbdən Ermənistanda baş verən proseslərə, kütləvi siyasi həbslərə səssiz qalınır, sadəcə kənardan izlənilir?

Lakin bütün bunlarla yanaşı, yaranan bəzi suallar bir çoxlarını düşündürməyə vadar edir. Məsələn, nəyə görə belə bir vəziyyətdə beynəlxalq aləmin, əsasən də insan haqlarının müdafiəsi təşkilatlarının, ABŞ dövlət departamentinin, ATƏT DTİHB-nin, Avropa Parlamentinin, Avropa İttifaqının və s. qərb qurumlarının səsləri çıxmır? Hansı səbəbdən Ermənistanda baş verən proseslər, sadəcə kənardan izlənilir və kütləvi həbslərə, siyasi təqiblərə səssiz qalınır? Əslində, bundan sonra da səssiz qalacaqları bəri başdan bəllidir. Çünki Nikol Paşinyan məhz Qərbin məlum dairələri tərəfindən hakimiyyətə gətirlib və hətta onun güc strukturları əhaliyə qarşı silah işlətsə belə, yenə də susqunluq davam edəcək. Uzağı bir-iki cümləlik "bəyanatlar" ola bilər ki, bu da yalnız gözdən pərdə asmağa yönəlmiş addım hesab edilə bilər. Buradan isə nəticə çxarmaq asandır - ikili standartlar və s. Artıq biz - regionda bütün mənalarda yüksək demokratik dəyərlərə qiymət verən, söz və ifadə azadlığını təmin edən ölkə olmaqla tərəfimizə qarşı bu standartların tətbiqini hiss etmişik. Halbuki, nəinki Paşinyan, elə Ermənistanın əvvəlki rejimlərində də mövcud olan antidemokratik məqsədlərə, söz və ifadə azadlığının boğulmasına, təqib və həbslərə, hətta törədilən terrorlara belə, heç bir sərt münasibətlər bildirməyib, susqunluqlar baş verib. Bütün bunlar öz yerində...

### Qarabağ işğalda olarkən dünyanın "demokratiya dərsi" keçən ölkələri, qurum və təşkilatları susurdular!

Lakin gələk Ermənistanla bağlı digər mövzuya. Bu ölkə 30 il boyunca Azərbaycana qarşı açıq-aşkar işğalçılıq siyasəti yürüdüb, son 27-28 ildə isə ərazilərimizi zəbt edərək əzəli torpaqlarımıza qan tökməklə, qətllər, terrorlar, soyqırımları törətməklə sahib olub. Bax, onda da - Qarabağ işğalda olanda dünyanın "demokratiya dərsi" keçən ölkələri, qurum və təşkilatları susdular. Sanki belə də olmalıymış. Amma niyə, nəyə görə?! Axı ötən müddət ərzində ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin iştirakı ilə dəfələrlə (!) danışıqlar aparılıb, müxtəlif prinsiplər əsasında razılaşmalar, sazişlər imzalanıb, ancaq Ermənistan hər dəfə öz işğalçılıq siyasətindən əl çəkməməklə yanaşı, təhdid dili ilə danışıb, hərbi-siyasi dairələri yeni ərazilərimizi işğal edəcəyini açıq şəkildə bəyan edib, istər dövlət sərhədlərimizdə, istərsə də Qarabağdakı təmas xətlərində çoxsaylı silahlı təxribatlara əl atıb.

### Livandan, Suriyadan və s. Yaxın Şərq ölkələrində yaşayan ermənilərin əraziərimizdə qeyri-qanuni yerləşdirilmələrinə də beynəlxalq təşkilatlar susqunluq nümayiş etdirirdilər

Bu idimi Ermənistanın uzun illər danışıqlar masasında apardığı "sülh danışıqları"? Əlbəttə ki, xeyr. Əgər belə olsaydı, işğallar baş verəndən hazırkı dövrümüzə qədər təmas xətlərinə yaxın yerlərdə, işğal olunmuş ərazilərimizdə keçilməz müdafiə istehkamları, beton bunkerlər, dotlar, dzotlar tikilməzdi və belə olmasa idi, Paşinyan Cəbrayıla yeni yol çəkəcəyini bəyan etməzdi, Laçın dəhlizində və s. ərazilərimizdə nəqliyyat qovşaqlarının istifadəyə veriləcəyini deməzdi və (!) Livandan, Suriyadan və s. Yaxın Şərq ölkələrində yaşayan erməniləri qeyri-qanuni, heç bir konvensiyaya uymadan gətirib bizim ərazilərimizə yerləşdirməzdi. Bütün bunlar isə məhz xarici beynəlxalq təşkilatların gözləri önündə baş verirdi. Özü də Azərbaycan dövlətinin rəsmi qurumlarının müvafiq bəyanatlarını görə-görə, eşidə-eşidə.

Belə olan vəziyyətdə Azərbaycanın ədaləti bərpa etməkdən başqa çıxış yolu da qalmırdı. BMT-nin qətnamələrinin, digər beynəlxalq qrumların qərarlarının yerinə yetirilməsi üçün hərəkətə keçən Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin əmrinə əsasən, məhz Onun rəhbərliyi altında işğal altındakı ərazilərimizi düşmən tapdağından azad etdi. Artıq bu gün bütün Qarabağ Azərbaycanın tərkib hissəsindədir, ərazilərimizdə üçrəngli bayrağımız dalğalanır. Yəni beynəlxalq aləm susurdusa, Azərbaycan dövləti öz əsgərinin şücaəti ilə bu susqunluğu qazandığı qələbəsi ilə əvəzləmiş oldu!

### İkili standartlar hər zaman mövcud olub, xüsusilə, işğaçlı, terrorçu Ermənistanla demokratik və sülhpərvər Azərbaycanla müqayisədə...

Düşmən isə bundan ciddi təlaş keçirir və Paşinyan hakimiyyətinin sülhə məcbur edilməsinin ardınca Ermənistanda yaranan aqressiya artıq ölkə daxilindəki böhranı daha da dərinləşdirir. Diktatorluq siyasətini həyata keçirən Paşinyan rejimi ilə müxalifət arasındakı uçurum isə ümumiyyətlə dərindir. Artıq Ermənistandakı siyasi çevrələrin bütün körpüləri yandırılıb. Qərb dairələri isə susur - bu dəfə də Ermənistanda cərəyan edən hadisələri görzəmlikdən gəlir. Belə bir yanaşma isə bizə bir daha isbat edir ki, ikili standartlar hər zaman mövcud olub, xüsusilə, işğaçlı, terrorçu Ermənistanla demokratik və sülhpərvər Azərbaycanla müqayisədə...

Söz yox ki, bütün bunlara baxmayaraq, Azərbacan dövləti və xalqı öz qalibiyyət və zəfərlərini davam etdirəcək, ona sonsuz sevinc, fəxr və qürur hissi bəxş edən Müzəffər Ali Baş Konandanının, Liderinin ətrafında sıx birləşərək, istənilən ayrıseçkiliyin, qeyri-taraz standartların öhdəsindən gələcək. Ermənistan isə öz problemləri və çıxılmaz vəziyyətində siyasi-ictimai problemər məngənəsində sıxışıb-qalmaqda davam edəcək.

## Xocavənd, Xankəndi və Xocalı sakinlərinə Azərbaycan pasportu veriləcək

Millət vəkili Vahid Əhmədov Azərbaycanın işğal altında olan torpaqları azad etmək üçün keçirdiyi hərbi əməliyyatların sonunda Ermənistanın hərbi kapitulyasiyası ilə nəticələnən üçtərəfli bəyanatın imzalanması və bu bəyanatda qeyd edilən, cəmiyyətdə bəzi kəsimi narahat edən məqamları şərh edib. V.Əhmədov Qafqazinfo-ya açıqlamasında bildirib ki, bu bəyanatla Azərbaycan ərazi bütövlüyünü təmin edib: "Bəzi adamlar deyirlər ki, Rusiya sülhməramlılarının Laçın dəhlizinə yerləşdirilməsi Azərbaycana rus ordusunun daxil olması deməkdir. Mən elə deməzdim. Çünki mənim aldığım məlumata görə, artıq Türkiyənin də sülhməramlıları oradadır, Laçın dəhlizində və digər ərazilərdə birgə işləyirlər. Türkiyə bu məsələdə kənarda saxlanılmamalıdır. Türkiyə təkcə Monitorinq Mərkəzində olmayacaq, həm Mərkəzdə, həm də Laçında, Xankəndidə, digər yerlərdə olacaq və artıq var.



Biz elə fikirləşməməliyik ki, rus ordusu Azərbaycana daxil olur. Buna son nəfəsimizə qədər icazə verən deyilik. Amma sülhməramlı qüvvə kimi işləsin, ciddi silahları da yoxdur. Mən arxayınam ki, Türkiyə sülhməramlıları da orada işləyəcək və birgə bütün məsələlər həllini tapacaq".

Millət vəkili V.Əhmədov qeyd edib ki, ermənilərin yaşayacağı ərazilər də Azərbaycan rayonları kimi tanınacaq və onlara Azərbaycan pasportu veriləcək: "Laçın dəhlizi də Azərbaycan dövlətinin ərazisi kimi qalır və o bölgədə bütün məsələlərə, Laçın dəhlizi də daxil olmaqla təhlükəsizliyə Azərbaycan dövləti təmin verir. Əvvəl DQMV var idi, status var idi, müəyyən hökumət var idi, indi heç biri yoxdur.

Xocavənd, Xankəndi, Xocalı Azərbaycanın rayonlarıdır. Bu rayonların icra başçıları, prokuror, polis və digər hüquq-mühafizə orqanlarının başçılarına göstəriş veriləcək ki, Azərbaycan vətəndaşları bu rayonlarda gəlib yaşaya bilər. Kim Azərbaycan vətəndaşıdır gəlib yaşasın, kim bunu qəbul etmirsə, orada daimi yaşaması mümkün deyil. Burada ciddi məsələlər var, elə-belə deyil ki, kim istəyir gəlsin yaşasın. Orada terrorçular var, təxribatçılar gələ bilər. Biz, sadəcə, çevik işləməliyik ki, o ərazilərdə öz hakimiyyətimizi tez quraq.

Xocavənd, Xankəndi, Xocalı və bütün ərazilər Azərbaycanın tərkibində qalır, çünki Azərbaycanın əraziləridir. Başqa kimin ola bilər ki. Azərbaycanın ərazi bütövlüyü təmin olunur. Bizim üçün ən əhəmiyyətli məsələlərdən biri olan status-kvo artıq yoxdur, vilayət yoxdur. Bunlar hamısı bizim rayonlarımızdır. Başçı təyin edəcəyik, gedib qurub yaradacaqlar.

Həmin ərazilərdə Ermənistan dövlətinə heç bir idarəetmə verilmir. Biz o qədər qanı ondan ötrü tökməmişik ki, Ermənistan dövlətinə idarəetmə verək. Müharibənin ilk günlərində cənab Prezident Ermənistana təklif etdi ki, silahları yerə qoyun, gəlin danışaq. Amma onlar buna getmədilər, dedilər yox, biz vuruşacağıq.

Vuruşdular və biz Şuşanı alandan sonra gördülər ki, uduzdular. Onların sabahkı taleyi, Ermənistanın dövlət kimi qalıb-qalmayacağı sual altındadır. Bölgədə vəziyyət tamamilə dəyişib, yeni bir güc peyda olub - Türkiyə dövləti. Çox güclü bir lideri var və dünyada bəzi məsələlərin həllində hamı ona qulaq asır və onun dediyi ilə hesablaşır. Suriyada, Liviyada, Aralıq dənizində bunu gördük. Qarabağ məsələsində də Türkiyə çox aktiv iştirak etdi və bu gün iştirak edir".

Deputat vurğulayıb ki, bəyanatdakı ən böyük maddələrdən biri Naxçıvanla Mehri və Zəngilan arasında yolun açılmasıdır:

"Hətta əlavə yolun çəkilməsi də ora salınıb. Bu həm Türkiyənin, həm də Azərbaycanın marağındadır. İlham Əliyevin ən üstün məqamlarından biri bu oldu ki, bu maddəni razılaşmaya saldırdı. Orada dəmir yolu işləyəcək, avtomobil yolu olacaq, Çin-Azərbaycan-Türkiyə-Avropa arasında İpək yolu var, bu böyük bir əhəmiyyətli layihədir. Bu layihə işlənib hazırlanacaq, məncə, ən gec bir il müddətinə bu yol açılacaq. Azərbaycan-Naxçıvan-Türkiyə birləşəcək və böyük bir problem həll ediləcək".

# VƏTƏNDAŞ MƏKTUBLARI: Siz hər zaman bizim inanc yerimiz, güvənc yerimiz oldunuz!

***Azərbaycan vətəndaşlarından, xaricdə yaşayan soydaşlarımızdan Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə məktublar gəlməkdə davam edir. SİA Prezidentin saytına istinadən həmin məktubların bəzilərini təqdim edir.***



Mayis Məmmədovdan, Novosibirsk, Rusiya

Cənab Prezident.

Novosibirsk vilayəti ərazisində yaşayan bütün azərbaycanlılar adından və şəxsən öz adımdan Sizə Azərbaycan dövlətinin lideri olaraq həyata keçirdiyiniz quruculuq fəaliyyətinə və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı olaraq qazandığınız zəfərlərə görə səmimi minnətdarlığımı bildirirəm.

Sizin müasirlərinizin bəxti onda gətirib ki, biz Sizin rəhbərliyiniz altında həyata keçirilən, Azərbaycanın inkişafına, Azərbaycan xalqının mədəni və tarixi nailiyyətlərinin qorunmasına yönəlmiş yaradıcı fəaliyyətin şahidləriyik.

Cənab Prezident, bütün Azərbaycan xalqı üçün əlamətdar hadisə - Azərbaycanın mədəniyyət mərkəzi olan Şuşa şəhərinin azad olunması ilə bağlı səmimi təbriklərimi qəbul edin.

2020-ci il 8 noyabr Azərbaycan tarixinə əbədilik yazıldı. Eyni zamanda, Ermənistanla Azərbaycan arasında illərdən bəri davam edən münaqişənin nizama salınması barədə 2020-ci il noyabrın 10-da müqavilə imzalanması münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm. Bu müqavilə regionda davamlı sülhə, əmin-amanlığa gətirib çıxaracaq və qan tökülməsinə son qoyacaqdır. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi regionda ən uzunmüddətli münaqişələrdən biridir və bu gün onun sona çatması, ilk növbədə, döyüş meydanında qələbə qazanan, çoxillik işğaldan azad olunmuş torpaqlarını geri qaytaran Azərbaycan xalqı üçün tarixi hadisədir. Azərbaycan Respublikasının bütün vətəndaşları dini-etnik mənsubiyyətindən asılı olmayaraq, doğma torpaqlarda ədalətin zəfər çalması və haqqın bərpası üçün birləşdilər.

Hörmətli cənab Prezident, Azərbaycan xalqının bu tarixi qələbəsi, ilk növbədə, Sizin sayənizdə mümkün oldu. Siz dünyamiqyaslı siyasətçi olaraq, öz xalqınızı hər zaman düzgün yola istiqamətləndirirsiniz. Sizin adınız Azərbaycan tarixinə qızıl hərflərlə yazılacaq!

Biz - Sizin həmvətənləriniz, hansı ölkədə yaşamağımızdan asılı olmayaraq, Sizi dəstəkləyir və Sizinlə fəxr edirik, Azərbaycanın rifahı naminə bundan sonra da əlimizdən gələn hər şeyi edəcəyik. Tarixi ədalətin bərpası, işğal edilmiş ərazilərin qaytarılması, bütün dünyada Azərbaycanın tarixi və mədəniyyəti haqqında obyektiv fikir formalaşması ilə bağlı Sizin qarşıya qoyduğunuz və uğurla gerçəkləşdirdiyiniz məqsədlər Vətənimizin ən yeni tarixinin formalaşmasına mühüm töhfədir.

Möhtərəm cənab Prezident, Sizi ürəkdən təbrik edir, Sizə cansağlığı və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

Zümrüd Quluyevadan, Goranboy, Azərbaycan

Əziz Prezidentim,

Mən 9-cu sinifdə oxuyuram. Siz həsrətlə gözlədiyimiz ən şad xəbəri - Qarabağın azad olunması xəbərini bizə çatdırdınız. Bu sevinc hisslərini xalqımıza yaşatdığınız üçün Sizə sonsuz minnətdarıq. Sizi min yaşayın.

Mən Sizinlə fəxr edirəm və qürur duyuram. Allah Sizi və Azərbaycan Ordusunu qorusun!

Eşq olsun Ali Baş Komandana! Eşq olsun Ordumuza!

Şahin İsayevdən, Oğuz, Azərbaycan

Dəyanətli, məğrur Prezidentim, Müzəffər Ali Baş Komandan!

Siz qətiyyətlə haqq-ədaləti bərpa edərək, xalqımızın inamını yenidən özünə qaytardınız. Sizi və müzəffər Azərbaycan Ordusunu Qarabağın tam azad olunması münasibətilə təbrik edirik.

Ulu Tanrı Sizi, Azərbaycan Ordusunu, əsgər və zabitlərimizi qorusun!

Qarabağ bizimdir!

Təbriz Aslanovdan, Ağdam, Azərbaycan

Hörmətli cənab Prezident,

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş Qarabağ və ətraf rayonların ərazilərinin işğaldan azad edilməsi üçün yürütdüyünüz siyasəti dəstəkləyirik. Sizin müdrik və uzgörən siyasətiniz nəticəsində torpaqlarımız yağı düşməndən təmizləndi.

Sizə və şanlı Ordumuza təşəkkür edir və Allahdan qüvvət arzulayırıq!

Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

Səfalı Paşayevdən, Masallı, Azərbaycan

Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan!

Ulu öndərimiz Heydər Əliyevin siyasi kursuna sadiq qalaraq və onun vəsiyyətinə əməl edərək işğal altındakı torpaqlarımızı, xüsusilə də Şuşa şəhərini işğaldan azad etdiniz. Bu möhtəşəm hadisə ilə bağlı Siz başda olmaqla bütün xalqımızı təbrik edir və 9 Noyabr Dövlət Bayrağı günü ərəfəsində xalqımıza bu sevinci yaşadıb şanlı Bayrağımızı Şuşada ucaltmaqla tarix yazdığınızı fəxrətlə vurğulayırıq.

Əziz Prezidentimiz, Siz Şuşanın azad edilməsi xəbərini Şəhidlər xiyabanından xalqa çatdırmaqla mənəvi dəyərlərimizə sadiq, qeyrətli Azərbaycan oğlu olduğunuzu bir daha təsdiq etdiniz.

Allah Sizi qorusun!

Fazil Həsənovdan, İsmayıllı, Azərbaycan

Hörmətli Prezident, müzəffər Ali Baş Komandan.

Sizi və şanlı Ordumuzu möhtəşəm Qələbə münasibətilə İsmayıllı Suvarma Sistemləri İdarəsinin kollektivi adından ürəkdən təbrik edirik.

Sizə, Ordumuzun əsgər və zabitlərinə cansağlığı, uzun ömür və müvəffəqiyyətlər arzulayırıq.

Şəhidlərimizin ruhu şad olsun!

Yaşasın Ali Baş Komandan! Yaşasın Ordumuz! Yaşasın Azərbaycan!

Qarabağ Azərbaycandır!

Fikrət Şərifovdan, Zaqatala, Azərbaycan

Möhtərəm cənab Prezident.

Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-dən keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində ard-arda rayonlarımızın düşmən tapdağından azad edilməsi Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi Sizin müdrik rəhbərliyinizin nəticəsidir. Noyabrın 8-də Sizin Şuşa şəhərinin işğaldan azad edilməsi barədə televiziya vasitəsilə bizlərə çatdırdığınız xəbər Zaqatala Suvarma Sistemləri İdarəsinin kollektivini ürəkdən sevindirir, doğma Vətənimizə daha böyük inamla xidmət etməyə ruhlandırır. Bütün Azərbaycan xalqı kimi idarəmizin mühəndis texniki işçiləri də tarixi torpağımızın erməni işğalından tezliklə azad olunacağına inanırlar.

Xarici ölkələrdən olan jurnalistlərin suallarına cəsarətli və faktlara söykənmiş cavablarınızı idarənin bütün əməkdaşları qürur hissi ilə qarşılayır.

Möhtərəm cənab Prezident, bizə böyük sevinc hissi yaşatdığınız üçün Sizə və rəşadətli Ordumuza ürəkdən təşəkkür edirik.

Qarabağ Azərbaycandır!

Kamil Xudaverdiyevdən, Naxçıvan, Azərbaycan

Hörmətli Prezidentim.

Mənfur erməni işğalçıları üzərində müzəffər Ordumuzun qazandığı Qələbə münasibətilə Sizi təb-

# VƏTƏNDAŞ MƏKTUBLARI: Siz hər zaman bizim inanc yerimiz, güvənc yerimiz oldunuz!

rik edir, əllərinizdən öpürəm. Çünki bu müzəffər Ordunun Ali Baş Komandanı Sizsiniz, hərbi və siyasi zəfərlər Sizin sayənizdə əldə edildi. Son 273 ildə Azərbaycan tarixində heç bir hökmdar, heç bir dövlət başçısı itirilmiş Azərbaycan torpaqlarını geri qaytarmağa nail olmamışdı. Bu missiyanı ulu öndərimiz Heydər Əliyevin oğlu, onun layiqli varisi İlham Əliyev şərəflə yerinə yetirdi.

Siz millətin xilaskarı kimi zirvəyə ucaldınız.

Eşq olsun Azərbaycanın yeni tarixini yazan polad iradəli, cəsur görkəmli sərkərdə, məharətli diplomat, müdrik siyasətçi, xalqımızı yumruq kimi birləşdirən əbədi Prezidentimiz İlham Əliyev cənablarına! Allah Sizi qorusun!

Emin Carçıyevdən, Abşeron, Azərbaycan

Müzəffər Ali Baş Komandan.

Sizi Vətən Müharibəsində qazandığımız qələbə münasibətilə öz adımdan, ailəmin hər üzvü adından, Abşeron gəncləri adından təbrik edirəm. Bizə bəxş etdiyiniz bu qələbəyə görə Sizə minnətdarıq, Sizə borcluyuq. Siz hər zaman bizim inanc yerimiz, güvənc yerimiz oldunuz. Sizinlə fəxr edirik. Tanrı Sizi qorusun! Var olun, müzəffər Ali Baş Komandanım!

Rüstəm Qüdrətovdan, İmişli, Azərbaycan

Müzəffər Ali Baş Komandan.

Qarabağımızın 30 illik işğalına son qoyuldu. Sizə edilən çoxlu təzyiqlərə baxmayaraq torpaqlarımızı işğaldan azad etməyi bacardınız. Uzun müddət apardığınız siyasi-diplomatik səyləriniz hərbi güclə tamamlanaraq öz bəhrəsini verdi.

İmişli rayon kommunistləri olaraq Sizin və qəhrəman Ordumuzun əsgərləri qarşısında baş əyirik. Sizə gələcək işlərinizdə uğurlar arzulayırıq.

Fərid Əsgərovdan, Tərtər, Azərbaycan

Möhtərəm Prezident, müzəffər Ali Baş Komandan.

Bu günlər xalqımız tarixi bir dönəm yaşayır. Sizin rəhbərliyiniz altında müzəffər Ordumuz Qarabağ torpaqlarını erməni işğalından azad edir. Hər gün döyüş bölgələrindən şad xəbərlər gəlir. Hər bir azərbaycanlı kimi mən də buna sevinirəm, qəlbim riqqətə gəlir.

Cənab Prezident, Siz xalqın sevimlisinə çevrilmisiniz. Biz Sizin hər bir çıxışınızı səbrsizliklə gözləyir və dərin vətənpərvərlik hissi ilə dediyiniz sözlərdən mütəssir oluruq. Bəzən gözlərim yaşla dolur, ürəyim Sizə minnətdarlıq hissi ilə döyünür. Əvvəllər mətbuat sahəsində işlədiyimə görə mən özüm də bu tarixi günlərdə xalqımızın qələbə ruhunu yüksəltmək üçün müxtəlif mətbuat orqanlarında yazılarla çıxış edirəm. Hazırda işlədiyim Ağdam rayonu Qasımbəyli qəsəbəsində yerləşən idarəmiz, o cümlədən yaşadığım Tərtər rayonu Köçərli kəndi tez-tez erməni faşistlərinin atəşlərinə məruz qalırdı. Bu cür təhlükəli şəraitdə mən öz işimi vicdanla yerinə yetirirəm. Qorxmadan, çəkinmədən doğma Qarabağda yaşamaqdan və işləməkdən zövq alıram. Daim ürəyimiz dədə-baba yurdlarımıza qayıtmaq hissi ilə döyünür.

Hörmətli Prezident, mən özümü Sizin əsgəriniz hesab edirəm. Bütün sahələrdə Sizə sədaqətlə xidmət etmək əhval-ruhiyyəsi ilə yaşayıram. Hələ 2015-ci ildə hərbi xidmət keçdiyim zaman Siz bizim hərbi hissənin açılış mərasiminə gəlmiş, məzmunlu çıxış etmişdiniz. Həmin görüş və çıxışınız hafizəmdə və qəlbimdə daim yaşayır, məni dövlətim üçün daha faydalı işlər görməyə sövq edir. Sizin ölkəmizin tərəqqisi naminə apardığınız daxlili və xarici siyasəti daim dəstəkləmişəm, bunu özümə mənəvi borc və vətəndaşlıq vəzifəsi hesab edirəm.

Cənab Prezident, indiki Vətən müharibəsi göstərdi ki, Siz dinc şəraitdə də, müharibə şəraitində də ölkəni məharətlə idarə edirsiniz. Bu müharibə, həm də Sizin sərkərdəlik istedadınızı üzə çıxardı. Hərbi əməliyyatlara, müzəffər Ordumuza uğurla komandanlıq etdiniz. Bizim işimiz haqq işidir, Allahın mərhəməti üstümüzdədir. "Qisas qiyamətə qalmaz" demişlər, elə də oldu. Allah Sizi qorusun, müzəffər Ordumuza yardımçı olsun!

Qarabağ Azərbaycandır!

Elbrus Abdullayevdən, Ağdam, Azərbaycan

Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan,

Şuşa şəhərinin işğaldan azad olunması, cəbhədə qazandığımız qələbələr münasibəti ilə Sizi və xalqımızı təbrik edir, qarşınızda baş əyirəm.

Biz həmişə inanırdıq ki, Siz torpaqlarımızı mənfur erməni işğalından azad edəcəksiniz.

Sizin xalça üzərində toxunmuş şəkliniz evimizdən asılıb. Hər dəfə şəklinizi görəndə Uca Tanrıdan Sizə cansağlığı, uzun ömür arzulayıram. Dualarımız Sizinlədir. Var olun, cənab Prezident!

Sərvinaz Qurbanovadan, Daşkəsən, Azərbaycan

Hörmətli cənab Prezident,

Mən bir zəhmətkeş Azərbaycan qadını kimi, Sizinlə fəxr edirəm. Eşq olsun Sizə, əziz Prezidentim! Hər zaman var olasınız! Siz bizim dayağımızsınız. Biz xalq olaraq hər zaman Sizin arxanızdayıq. Yaşasın Müzəffər Ali Baş Komandanımız!

Yaşasın Azərbaycan xalqı!

## "Pakistan Observer" qəzeti: Müsəlman aləmində sözünü deyən lider meydana çıxdı



"Pakistan Observer" qəzetinin redaktoru Riyaz Əhməd Azərbaycan Prezidenti İlham Əliyevin "BBC News"a müsahibəsinə istinadla hazırlayıb dərc etdirdiyi məqaləsi üçün "Müsəlman aləmində sözünü deyən lider meydana çıxdı" başlığı seçib. AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan Prezidentinin "BBC News" müxbirinin suallarına dərin məntiqə əsaslanan cavablar verdiyi, öz sözünü cəsarətlə dediyi vurğulanır, müsahibədən bu fikri təsdiqləyən sitatlara geniş yer ayrılır.

Qeyd edək ki, Pakistan dövləti və xalqı Azərbaycanın ərazi bütövlüyünü daim birmənalı olaraq dəstəkləyib, ölkəmizin yanında yer aldığını açıq şəkildə bəyan edib. Baş Nazir İmran Xanın dəstək bəyanatları, Pakistan Milli Assambleyasının Ermənistanın Azərbaycana qarşı təcavüzünü və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki əhalisinə qarşı qeddar hücumlarını kəskin pisləyən qətnamə qəbul etməsi, parlamentin Sədri Əsəd Qayserin Milli Məclisin Sədrinə ünvanladığı məktubda Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın mülki şəxslərinin atəşə tutulmasına qəti etiraz bildirməsi, Xarici İşlər naziri Mahdum Şah Mahmud Qureşinin bəyanatları, diplomatların və jurnalistlərin çıxışları, həmçinin sadə pakistanlıların sosial şəbəkələrdə xalqımızın yanında olduqları barədə ürək sözləri bizim üçün çox dəyərlidir. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Rusiyanın İnterfaks agentliyinə müsahibəsində Pakistanın və Türkiyənin bu dəstəyini yüksək qiymətləndirib və onlara təşəkkürünü bildirib.

Azərbaycanın Vətən Müharibəsi apardığı günlərdə Pakistanın "National Herald Tribune", "Pakistan Observer" və digər nüfuzlu qəzetləri, "Diplomatic News Agency" informasiya agentliyi, PTV, "Dawn News", "A Plus" televiziya kanalları Azərbaycanın haqlı mövqeyini təbliğ edib, Ordumuzun şanlı Qələbəsi haqqında xəbər, məqalə və reportajlar yayıblar.

Pakistanın Yaxın Şərq ölkələrindəki keçmiş səfiri Cavid Hafizin "Arabnews" qəzetində dərc olunmuş "Pakistan niyə Azərbaycanı dəstəkləyir?" sərlövhəli məqaləsində bildirilir ki, Türkiyədən sonra Azərbaycanın dövlət müstəqilliyini tanıyan ikinci ölkə olan Pakistan qardaş azərbaycanlılarla sıx və səmimi əlaqələr qurub. Rəsmi Bakı Pakistanın Cəmmu və Kəşmir, İslamabad isə Azərbaycanın Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında mövqeyini daim dəstəkləyib. Azərbaycan, eyni zamanda, 1996-cı ildən İƏT-də Kəşmir üzrə təmas qrupunun üzvüdür. Diplomat yazır ki, Dağlıq Qarabağ ərazisinə sonradan köçürülən ermənilərin separatçı mövqeyi, Ermənistanın işğalçı siyasəti sonda iflasla nəticələnməli idi və belə də oldu.

## İspaniyanın "La Razon" qəzeti: Ermənistan sarsıntı içindədir

İspaniyanın geniş oxucu kütləsinə malik "La Razon" qəzetində Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidenti tərəfindən imzalanmış bəyanatın müddəalarının Ermənistanda etirazlarla qarşılanması geniş şəkildə işıqlandırılıb.



LA RAZÓN • Jueves, 12 de noviembre de 2020 — 21
INTERNACIONAL

La ira por la «traición» sacude a Armenia

Las fuerzas de paz rusas se despliegan en Nagorno Karabaj tras la firma del acuerdo

Eduardo Bajo - Moscú

Pocas horas después del alto el fuego en el Cáucaso las fuerzas de paz rusas se han empezado a desplegar en la todavía humeante región de Nagorno Karabaj, según fuentes del ministerio de Defensa ruso que han confirmado la entrada en escena de sus efectivos tal y como marcaba el acuerdo de paz firmado entre Armenia, Azerbaiyán y Rusia. El jefe de la Dirección operativa del Estado Mayor ruso, Sergey Rudskoy, confirmó ayer que las fuerzas de paz enviadas por su país ya controlan el corredor de Lachin, conexión clave entre Armenia y la región en conflicto, con 414 militares desplazados, ocho helicópteros y decenas de vehículos y equipos de apoyo, «habiéndose realizado en

Según Rudskoy, casi todos los militares integrantes de la misión de paz desplegados en la zona tenían experiencia previa en acciones humanitarias en Siria. Ayer mismo también se confirmó que Turquía supervisará junto a Rusia la aplicación del alto el fuego en la zona mediante un centro conjunto de observación, que se establecerá en territorio de Azerbaiyán, tal y como informó este martes un portavoz turco tras una conversación telefónica entre el presidente Recep Tayyip Erdogan y su homólogo ruso Vladimir Putin. Pero la llegada de la paz en Nagorno Karabaj no ha sido recibida de la misma manera, a juzgar por las reacciones de los protagonistas del conflicto. Mientras en Azerbaiyán la gente sigue celebrando en las calles un acuerdo que les reconoce los territorios conquistados durante la última contienda, en Armenia el descontento se ha convertido en furia tras las palabras del primer ministro Nikol Pashayan que comunicaba en su cuenta de Facebook el lunes la firma del «doloroso» acuerdo en el que su país es el gran perjudicado.

Centenares de personas continuaban manifestándose en la capital del país, Yereván, pidiendo la dimisión del primer ministro Pashayan, después de haber tomado este martes la sede del Gobierno y el Parlamento con gritos de «traidor» al jefe del Ejecutivo y exigiendo que el primer ministro se reuniera con ellos. El presidente de la Asamblea, Ararat Mirzoian, fue también víctima de las protestas.

A pesar del clima reinante en Armenia, hay quien defiende la decisión del primer ministro «por haber ahorrado miles de muertos» a un país que en todo momento estuvo en desventaja, ya que el apoyo de Turquía a Azerbaiyán fue cuantioso. De haber continuado la guerra, Armenia habría reclamado la ayuda militar de Rusia, según lo acordado por la Organización del Tratado de Seguridad Colectiva (OTSC), creada en 1992 y a la que pertenecen ambos países, además de Bielorrusia, Kazajistán, Kirguistán y Tayikistán.

La jugada maestra de Moscú para evitar una entrada en el conflicto y así ampliar sus consecuencias (Turquía siempre estuvo al lado del régimen de Bakú) fue poner a todas las partes de acuerdo después de largas y tensas conversaciones a tres bandas y redactar un tratado de paz «in extremis» que frenara la escalada militar en la zona, después de seis semanas en guerra en las que habían muerto ya 5.000 vidas y miles de desplazados.

Una manifestante protesta contra el acuerdo de paz con Azerbaiyán

AZƏRTAC xəbər verir ki, məqalədə sözügedən bəyanatın Azərbaycanda böyük sevinclə qarşılandığı, bunun əksinə olaraq, Ermənistanın uzun müddət işğal altında saxladığı Azərbaycan torpaqlarını itirməsi səbəbindən ölkədə sakinlərin etiraz aksiyasına başladığı qeyd olunur.

Yazıda 40 gündən artıq davam etmiş döyüşlərin Azərbaycanın tam qələbəsi ilə yekunlaşdığı diqqətə çatdırılaraq Ermənistanın ikitərəfli, habelə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı çərçivəsində hərbi yardım almaq üçün dəfələrdə Rusiyaya müraciət etdiyi, lakin Rusiyanın döyüşlərin Azərbaycan ərazilərində aparılması səbəbindən Ermənistana hər hansı hərbi yardımın göstərilməsindən imtina etdiyi qeyd olunur. Məqalədə Ermənistanın baş naziri Nikol Paşinyanın sözləri də yer alıb: "Bəyanatın mətni şəxsən mənim üçün və xalqımız üçün çox ağrılıdır. Bu qərar hərbi vəziyyətin dərindən təhlili və sahənin ən yaxşı mütəxəssisləri ilə aparılan müzakirələr əsasında qəbul edilib".

Ermənistanda kütləvi iğtişaşlara qatılan etirazçılar baş nazir Nikol Paşinyanı, habelə Ermənistan parlamentinin sədri Ararat Mirzoyanı Ermənistana xəyanətdə ittiham edərək onların istefasını tələb edirlər.

# Vüqar Rəhimzadə: 10 Noyabr Azərbaycanın müstəqillik tarixinə qızıl hərflərlə əbədi həkk olundu



***"Sentyabrın 27-dən başlanan İkinci Qarabağ müharibəsi Azərbaycanın qələbəsi və Ermənistanın kapitulyasiyası ilə başa çatdı. 44 gündə 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə, çoxsaylı strateji yüksəkliklər işğaldan azad edildi. Azərbaycanın rəşadətli ordusu malik olduğu imkanları, gücünü, qüdrətini işğalçı Ermənistana və onun havadarlarına bir daha göstərdi. Dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev xalqa müraciətlərində, həmçinin Müdafiə Nazirliyinin məlumatlarında hər gün düşmənin nə qədər hərbi texnikasının məhv edildiyini, həmçinin qənimət kimi götürüldüyünü açıqladı.***

Noyabrın 11-də cənab İlham Əliyev 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşündə "Qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəridir, Azərbaycan zabitidir və hər kəs bunu bilməlidir" söyləyərək onların qəhrəmanlıqları əsasında yazılan tarixdən geniş bəhs edərək bu məqamı da xüsusi vurğulamışdır ki, düşmənin qənimət götürülmüş hərbi texnikasının Bakıya gətirilməsinə, bunun üçün yer seçilməsinə göstəriş verilib. Həmin texnikanı nümayiş etdirəcəyik, bütün Azərbaycan xalqı nəyi əldə etdiyimizi görəcək". Bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, noyabrın 10-da Azərbaycan ən yeni tarixinin şanlı zəfər səhifəsini yazdı: "Dövlətimizin qətiyyəti, əsgər və zabitlərimizin yüksək vətənpərvərliyi, igidliyi və yenilməzliyi, Prezident-xalq-ordu birliyi sayəsində ədalət bərpa olundu, işğala son qoyuldu. Ermənistan və onun "yenilməz ordusu" döyüş meydanında darmadağın edildi, diz çökdü. Budur, Azərbaycan ordusunun məğrurluğu, yenilməzliyi. Çünki bu torpaqlar öz tarixi sahibinə qayıtmalı idi və qayıtdı. Müharibənin başlandığı gündən sülh danışıqlarının zəruriliyinə nə qədər çağırışlar edilib, döyüşün dayandırılması üçün təzyiqlər göstərilməsinə baxmayaraq, möhtərəm Prezidentimiz İlham Əliyev öz prinsipiallığını, əzmini bir daha nümayiş etdirdi. Cənab İlham Əliyevin istər ordumuzun zəfər yürüşünü davam etdirməsi istiqamətində göstərdiyi səylər, istərsə də Vətən müharibəsinin getdiyi 44 gündə xarici mətbuata 30-a yaxın müsahibəsində səsləndirdiyi bəyanatlar bir daha sübut etdi ki, Azərbaycanın milli maraqları hər şeydən öndə dayanır. Dövlətin maraqlarından, xalqın iradəsindən kənar bir addım belə atıla bilməz".

Baş redaktor qeyd edib ki, təkcə 10 noyabr qələbəsi ərəfəsində, yəni 8-9 noyabrda qələbə xəbərlərinə diqqət yetirsək, Azərbaycan Ordusunun 44 gündə nə qədər böyük uğurlara imza atdığını, eyni zamanda, tezliklə işğal altında olan bütün torpaqlarımızda üçrəngli bayrağımızın dalğalanacağına əminlik yaratdığını da görürük. Cənab İlham Əliyev Qarabağın ürəyi olan şuşamızın işğaldan azad olunması münasibətilə Şəhidlər xiyabanından xalqa müraciətində zəfər yürüşünün davam etdiyini bildirdi. Müzəffər Ali Baş Komandan noyabrın 9-da 71 yaşayış məntəqəsinin, bir qəsəbənin, 8 strateji yüksəkliyin işğaldan azad olunması sevincini paylaşdı. Bütün bu uğurlarımız işğalçı Ermənistanı kapitulyasiyaya məcbur etdi. 44 gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu istehkamları darmadağın etdi. Bu gün artıq erməni politoloqları, siyasətçiləri də etiraf edirlər ki, imzalanan bəyanat razılaşma deyil, Ermənistanın total təslim olmasını əks etdirən aşağılayıcı sənəddir. Naxçıvana Ermənistandan keçən quru yolunun razılaşmaya daxil edilməsi isə düşmən ölkədə "fəlakət" adlandırılır.

V.Rəhimzadə vurğulayıb ki, 30 ildir danışıqlar prosesində Ermənistan nail olmaq istədiklərinin heç birini əldə edə bilmədi: "Dağlıq Qarabağın statusunun müəyyən edilməsi məsələsi arxivə getdi, Dağlıq Qarabağda yeni erməni dövlətinin yaradılması planları pozuldu. Ermənistanın daxilindəki hazırkı biabırçı mənzərə, anarxiya və xaos, Paşinyana qarşı artan etirazlar, bununla müqayisədə dövlətimizin başçısı, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin fəxrlə bəyanata imza atması, Azərbaycan xalqının əhval-ruhiyyəsi, bayram sevinci kimin qalib, kimin isə məğlub olduğunu aydın şəkildə nümayiş etdirdi. Hazırda Ermənistan 1992-1993-cü illərdəki Azərbaycanı xatırladır. İdarəçilikdə naşı, səriştəsiz, qeyri-peşəkar şəxslərin təmsil olunması ölkəni bir-birinin ardınca böhranlara və fəlakətə sürükləyir. Azərbaycan yeni reallıqlar yaratdı, regionda yeni əməkdaşlıq formatını formalaşdırdı. Atəşkəsə nəzarət üzrə Türkiyə-Rusiya sülhməramlı mərkəzinin yaradılması regionda uzunmüddətli sülhün təmin edilməsi işinə töhfə verəcək. Dövlətimizin başçısı İlham Əliyev noyabrın 10-da qələbə müjdəsini xalqa çatdırarkən bildirmişdir ki, bu tarixi sənədə imza atdığım üçün xoşbəxtəm, "Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq! Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz!"".

"Bu günün diqqət çəkən məqamlarından biri müharibənin getdiyi dövrlərdə məsələyə yanaşmasında müsbət mənada dəyişikliklər baş verən radikal müxalifətin bu gün Fransa və digər ermənipərəst ölkələrin Azərbaycana qarşı mövqeyinə uyğun tezislərlə çıxış etməyə başlamalarıdır" söyləyən baş redaktor bu kimi addımların Azərbaycan ictimaiyyətində ikrah doğurduğunu bildirib: "Bu, həmin ünsürlərin xarici himayədarlarından yeni təlimat almalarına işarədir. Müharibənin getdiyi vaxtlarda özlərini xalqa vətənpərvər kimi təqdim edən radikal ünsürlərin bu gün mövqelərində 180 dərəcə dəyişiklik etmələri heç də təəccüb doğurmur. Çünki xalq onların bu simasızlığının, mənəviyyatsızlığının, düşmən dəyirmanına su tökmələrinin daim şahididir. Amma unudurlar ki, dövlət maraqları şəxsi ambisiyalarına qurban verməməli onlara heç vaxt başucalığı gətirməyib və gətirməyəcək. Dövlətimizin başçısı İlham Əliyevin atdığı hər bir addımın əhəmiyyətini azaltmağa, ölkəmizin uğurlarına qara eynəkdən baxmağa adətkar olan bu antimilli ünsürlər yenə də ənənələrinə sadiq olaraq xarici təlimatlar əsasında əldə olunan möhtəşəm qələbə ilə bağlı müxtəlif bəhanələrlə qərəzli, heç bir əsası olmayan müzakirələr aparır, gündəmdə qalmağa cəhd göstərirlər. Azərbaycan hakimiyyətinə qarşı əsassız ittihamlarla çıxış edənlər vaxtilə məhz onların səriştəsizliyi, bacarıqsızlığı, şəxsi ambisiyalarının quluna çevrilmələri ucbatından Azərbaycan kapitulyasiya vəziyyətinə düşərək Dağlıq Qarabağ və ətraf rayonları itirmişdir. Bu gün ölkə Prezidenti, Ali Baş Komandan xalqımıza böyük ağrılar yaşatmış həmin səhvləri sarsılmaz siyasi iradəsi, yüksək diplomatik səriştəsi ilə aradan qaldırdı. Radikal müxalifət torpaqlarımızın azad olunmasına sevinmək, bunu qiymətləndirmək, 30 il xalqımızın torpaq həsrəti ilə yaşamasının səbəbkarı olduqları üçün Azərbaycan xalqından üzr istəmək əvəzinə, xəyanət və riyakarlıq yolunu tuturlarsa, bu, o deməkdir ki, onların ermənilərdən heç bir fərqi yoxdur".

## 44-cü gün, yaxud işğalı bitirən son akkordlar



Azərbaycanın əldə etdiyi tarixi-strateji Qələbənin miqyası o qədər böyükdür ki, bunu dərk etmək üçün zamana ehtiyac var. Qələbə çoxvektorludur, bunun şaquli dərin və üfüqi coğrafiyası ikinci görünən tərəfdir. Hamımız bunu vizual olaraq aydın görürük ki, torpaqlarımız işğaldan azad edildi. Birinci isə heç də hamımızın görə bilmədiyi dərin qatlardadır. Zamanla üzə çıxdıqca biz onu dərk edəcəyik. Məhz dərin qatlarda baş verən hadisələr mənsub olduğumuz geostrateji rayonun gələcəyini təyin edəcək. Bu, elə bir gələcək olacaq ki, Azərbaycan-Türkiyə tandemi yeni dünya nizamında diktə edən güc mərkəzlərindən birinə çevriləcək.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu bildirib. Deputat deyib ki, düşməni və onun havadarlarını pərişan edən məhz bu strateji dərinlikdən başı çıxanların qurduğu cümlədir. Onun sözlərinə görə, xalqımızın Vətən müharibəsinin, istiqlal savaşının sonu bizə qalibiyyət və yeni geostrateji status qazandırdı. Qısaca olaraq, bu tarixi qələbəyə necə gəldiyimizin siyasi arxeologiyası isə belədir.

Problemin 70 illik fasilədən sonra yenidən aktiv fazaya keçməsi dövrü - 1920-ci ildən 1988-ci ilədək davam edən mərhələnin bitməsi, 1990-1994-cü illər asimmetrik müharibə dövrü və döyüşlərdə Azərbaycanın uduzdurulması. 1994-1997-ci illər fəal sülh axtarışları mərhələsi, 1997-2001-ci illər problemin həllinə yaxınlaşmaq mərhələsi. 2001-ci ildə Ki Uest fiaskosu. 2001-2003-cü illər danışıqların imitasiyası dövrü. 2003-2016-cı illər strateji sükut yaxud səssiz müharibə dövrü. 2016-2018-ci illər strateji sükut və səssiz müharibə dövründə Azərbaycanın müharibəyə hazırlığının test edilməsi mərhələsi. Aprel və Günnüt döyüşləri. 2018-2020 iyul tarixləri arasındakı vaxt nəticələrin təhlil edilməsi, çatışmazlıqların qısa müddətdə aradan qaldırılması və hərbi -siyasi və geostrateji zamanın zərgər dəqiqliyi ilə seçilməsi. 2020-ci ilin sentyabr ayının 27-dən noyabr ayının 9-na qədər davam edən 44 günlük müharibə dövrü və tam qələbə, işğalçı Ermənistanın kapitulyasiya aktına qol çəkməsi.

H.Babaoğlu vurğulayıb ki, müharibələrin tarixi göstərir ki, müharibəyə başlamaq nə qədər çətindirsə, onu bitirmək ondan da çətindir. Üstəlik, yaşadığımız mürəkkəb regionda mövcud olan güc balansları kontekstində bunu etmək daha da çətindir. Ancaq Azərbaycan bunu bacardı və hərbi qələbəsini siyasi-diplomatik qələbəsi ilə də taclandırdı: "Hazırda isə çox fəal və sürətli postmüharibə mərhələsinə qədəm qoymuşuq və ən çox müzakirə olunan məsələlərdən biri xalqımızın öz doğma torpaqlarında necə və nə vaxt məskunlaşacağı məsələsidir. Bəzi kommunikasiya və təhlükəsizlik məsələlərinin aparacağı vaxtı çıxmaq şərti ilə elə dərhal bu proses başlayacaq. Yeddi rayonumuzda əhalinin müharibəyə qədər olan demoqrafik strukturu qeyd-şərtsiz bərpa olunacaq, sonradan işğal edilmiş ərazilərimizə süni məskunlaşdırma nəticəsində gətirilənlər sonuncu nəfərinədək və bəyanatda qeyd olunan müddət ərzində təcili olaraq çıxarılacaq".

## Musa Qasımlı: "Avrasiyada yeni geosiyasi reallıqların yaranması astanasındayıq"



Azərbaycan Prezidentinin, Ermənistanın baş nazirinin və Rusiya Prezidentinin imzaladıqları bəyanat təkcə təcavüzkar Ermənistanın hərbi təslim aktı, diz çökməsi və işğal edilmiş ərazilərimizdən verilmiş cədvələ uyğun olaraq çıxarılması demək deyil. Bu sənəd daha geniş məna kəsb edərək, Azərbaycan Respublikasının böyük geosiyasi və geoiqtisadi qələbəsidir.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, professor Musa Qasımlı deyib.

Deputat bildirib ki, hər şeydən əvvəl, sənədə Prezident İlham Əliyevin təklifi ilə daxil edilmiş 9-cu maddə Azərbaycanın digər ərazilərinin Naxçıvanla kəsilmiş quru (avtomobil, dəmir yolu) əlaqələrinin bərpasını nəzərdə tutur. Bununla, Naxçıvanın blokadasına son qoyulacaq, Azərbaycan Bakı-Tbilisi-Qars dəmir yolu ilə yanaşı, Bakı-Naxçıvan-İğdır-Qars-İstanbul dəmir yolu vasitəsilə Türkiyə üzərindən Avropaya çıxa biləcək. İkincisi, ötən əsrin 20-ci illərinin əvvəllərində Türkiyənin türk dünyası ilə kəsilmiş quru əlaqələri bərpa olunacaq, Qars-İğdır dəmir yolu Naxçıvana qədər, oradan daha da genişlənərək körfəzə və Mərkəzi Asiyaya qədər uzana bilər. Region ölkələrinin hamısının faydalanacağı və böyük geosiyasi, geoiqtisadi əhəmiyyət kəsb edəcək bu yolun fəaliyyətə başlaması nəticəsində Naxçıvan dünyanın mühüm nəqliyyat-kommunikasiya mərkəzlərindən birinə çevriləcək. İki böyük ölkə olan Rusiya və Türkiyənin bərabər hərəkət etməsi nəticəsində regionda tərəf olmaq iddiası ilə çıxış edən kənar oyunçuların arzuları boşa çıxır. Beləliklə, biz Avrasiyada yeni geosiyasi reallıqların yaranması astanasındayıq.

## Pandemiyanın yayılması dolları bahalaşdırır



Koronavirusa qarşı yeni dərmana dair nikbinlik ABŞ-da yoluxmaların xeyli artması ilə dəf edildiyi nəticəsində ABŞ dollarının başlıca valyutalara qarşı məzənnəsi artmağa başlayıb.

Bakı vaxtı ilə saat 13:50-də avro ABŞ dollarına qarşı 1,1814-dən 1,1785-dək, yenə qarşı 105,28-dən 105,47-dək artıb. Beləliklə, ABŞ dollarının indeksi, yəni 6 başlıca pul vahidinə qarşı orta məzənnəsi 0,16 faiz azalaraq 92,9 bəndə enib.

Xatırladaq ki, bu həftənin əvvəlində "BioNTech" və "Pfizer" şirkətləri tərəfindən yaradılan peyvənd dərmanının uğurlu sınaqlarına dair xəbərlər ABŞ dollarının ucuzlaşmasına təkan vermişdi. Lakin dərmanın kütləvi istehsalına hələ xeyli vaxt qaldığı üçün bu təkan çox çəkmədi. Üstəlik, koronavirusun yayılmağa davam etməsi də bazar iştirakçıları tərəfindən narahatlıqla qarşılandı. Belə ki, Cons Hopkins Universitetinin məlumatına görə, son 24 saat ərzində ABŞ-da daha 111 mindən çox sakin koronavirusa yoluxub, 590 nəfər də ölüb. "Dünyada koronavirusa yoluxanların artmasına dair dünənki məlumatları nəzərə alsaq, pandemiyanın iqtisadi fəsadlarına dair narahatlıq üzündən səhm və s. risqli aktivlər bazarının artımı ləngiyə bilər. Odur ki, COVID-19 dövrünün başa çatmasına sevinmək üçün hələ tezdir", - deyə "JFD Group"un baş eksperti Xaralambos Pisuros (Charalambos Pissouros) "Reuters"ə bildirib./report

# "Le Monde" Füzulinin Mərdinli məscidinin erməni işğalçıları tərəfindən dağıdılmasından yazır


Le Monde
Consulter le journal
Se connecter S'abonner
ACTUALITÉS ÉCONOMIE VIDÉOS OPINIONS CULTURE M LE MAG SERVICES
INTERNATIONAL · CONFLIT AU HAUT-KARABAKH
Partage
Haut-Karabakh : à Fizouli, abandonnée depuis 1993, l'Azerbaïdjan reprend possession de ruines et de bunkers
Dans sa reconquête, l'armée azerbaïdjanaise trouve sur son chemin des villes fantômes, des sillons labourés par les obus, des cimetières saccagés et de multiples mines.
Par Paul Tavignot · Publié aujourd'hui à 02h32, mis à jour à 11h19
Lecture 5 min.
Article réservé aux abonnés
PUBLICITÉ

Gənc zabit Natiq, tövləyə çevrilən Mərdinli məscidinə diqqəti çəkərək deyir: "Ermənilər orada donuz saxlayıblar". Sonra Mərdinli müsəlman qəbiristanlığına işarə edir. Qəbirlər "erməni işğalçıları" tərəfindən dağıdılaraq alt-üst edilib. Minalandığına görə bu sahəyə yaxın getməmək məsləhət görülür.

"Bütün bu dağıntılara, qazılmış çuxurlara baxın. Yalnız xarabalıq qalmışdır. Əgər burada heç kim olmayacaqdısa, niyə bizi buradan didərgin salmışdılar",-deyə gənc azərbaycanlı zabit Natiq ritorik sual verir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər "Le Monde" qəzetində dərc olunmuş " Dağlıq Qarabağ: 1993-cü ildən tərk edilmiş Füzulidə Azərbaycan xarabalıq və bunkerlərə sahib çıxır" adlı məqalədə yazılıb.

Jurnalist şəhərdə bütün tikililərin darmadağın edildiyini yazır. Hətta uçuntuları qalan məbədin hansı dinə aid olduğunu müəyyən etməyin çətinliyini diqqətə çatdırır. Rastlaşdığı uçuntular içərisində bir məbədin hansı dinə aid olduğu, hətta adı dəqiq bilinmədiyini yazaraq, bunun səbəbi kimi 1993-cü il avqustun 23-dən Fizulidə heç kimin yaşamadığını göstərir.

Bildirir ki, 1989-cu ildə son siyahıyaalmaya görə 17 min sakini olmuş şəhər Dağlıq Qarabağdakı erməni qüvvələri tərəfindən işğal edilmiş və onun sakinləri evlərindən didərgin salınmışdır.

Məqalədə 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş Füzuli rayonunun Azərbaycan ordusu tərəfindən azad olunması haqqında məlumat verilib. Azad olunmuş Füzuli təsvir olunaraq yazılır: "Yenidən fəth etdiyi ərazilərdə Azərbaycan ordusu ruhların dolaşdığı şəhər, mərmi qırıntılarından qazılmış torpaqlar, dağıdılmış qəbiristanlıqlar və minalanmış sahələrlə üzləşir".

# Jalə Əliyeva: "Prezident Azərbaycan tarixinin 200 illik axarını dəyişdirdi"



"Bu gün hər birimiz böyük sevinc, qürur içərisindəyik. Biz İkinci Qarabağ savaşını, Vətən müharibəsini qələbə ilə başa çatdırdıq, Ermənistanı sülhə məcbur etdik. Torpaqlarımızı addım-addım, qarış-qarış ordumuzun gücü, əsgərlərimizin qəhrəmanlığı ilə, xalqımızın birliyi və etimadı sayəsində, Ali Baş Komandan İlham Əliyevin düşünülmüş siyasəti ilə əldə etdik. Bu, böyük qələbədir". SİA-nın verdiyi məlumata görə, bu fikirləri millət vəkili Jalə Əliyeva deyib.

O bildirib ki, cənab Prezident bu addımları ilə strateji səbir, dönməz məqsədyönlülük, mümkünsüzü mümkün etmək nə demək imiş bunları bütün dünyaya isbat etdi: "Ölkə başçısı sadəcə yeni şərəfli tarix yazmır, həm də Azərbaycan tarixinin 200 illik axarını dəyişdirib. Əsgərlərimiz Azərbaycanın hərb tarixində mövcud olmayan şücaətləri, qəhrəmanlıqları və nailiyyətləri sərgilədi. Bunlar güclü iradə, dönməz qətiyyət sayəsində, hərb siyasətini dərindən bilmək sayəsində baş tuta bilərdi ki, bunu da əlbəttə, bütün dünya gördü, eşitdi. İmzalanan üçtərəfli razılaşma da birmənalı olaraq Ermənistanın məğlubiyyətinin sübutudur, onların öz məğlubiyyətlərini qəbul etməsinin sənədidir. Paşinyan çox söz deyə bilər. Hər zamankı kimi erməni xislətinə xas olan şəkildə hər hansısa əməli törədib, sonra onun arxasından qaçmaq kimi onların tarix boyu cəhdləri olub. Ermənilər bu müqavilə ilə bağlı da çox fikirlər səsləndirə bilərlər. Onların başqa yolları yoxdur".




J.Əliyeva qeyd edib ki, bu gün bütün Ermənistan ayağa qalxıb, hakimiyyətdən tələb edirlər, ölən övladlarının tökülən qanlarının, aparılan bu çirkin siyasətin onlara vurduğu zərbənin cavabını istəyirlər: "Paşinyan da hər zamankı kimi dəqiq mövqe bildirməmək, qaçıb canını qurtarmaq məcburiyyətindədir. Bu razılaşma birmənalı olaraq Ermənistanın, onun hərbi-siyasi rəhbərliyinin fiaskosu, uğursuzluğu, məğlubiyyətidir. Azərbaycan bundan sonra daha böyük güc əldə edəcək, böyük imkanlarla özünün iqtisadi, hərbi, siyasi gücünü artıracaq. Yaxın günlərdə Kəlbəcər, Ağdam və Laçın tamamilə azad olunacaq. Kapitulyasiya ifadəsinin özü belə bu gün Ermənistanda böyük narahatlıq, həyəcan yaradır. Bu kapitulyasiyadan sonra ən keçilməz, ən kiçik sahələrimiz belə dövlətimizin nəzarəti altında olacaq. Qarabağda böyük inkişaf gedəcək.

Biz bütün o yıxılan, məhv edilən, barbarcasına yox edilən rayonlardakı, bölgələrimizdəki iqtisadiyyatımızı, tarixi-mədəni abidələrimizin, evlərimizin, təbiətimizin hər birini dirçəldəcəyik. O torpaqların hər bir hissəsinə üçrəngli bayrağımızı sancmaqla bütövlüyümüzü təmin edəcəyik. Yaşasın Azərbaycan, yaşasın Prezidentimiz! Gözün aydın olsun, Azərbaycan, var ol, xalqım!".

# Ermənilər fransalı deputatı təhdid edir

"Ermənilər özlərini "Ari" irqinə aid edirlər və hər addımda özlərini hamıdan üstün tutmağa və başqa xalqların onlara aşağıdan baxmalarını istəyirlər. Əslində ermənilər "Ari" yox, arıdırlar". Bunu fransalı məşhur bloger Alexa Rank deyib. Onun bu fikirlərini dolayısı ilə Fransa Milli Assambleyasında Azərbaycanla dostluq qrupunun vitse-prezidenti Jerom Lamber də təsdiq edib.

O, Milli Məclisdə görüş zamanı cəbhədə döyüşlər gedən günlərdə Azərbaycan həqiqətlərini dünyada yaymaq istiqamətində və Fransadakı erməni diasporuna qarşı apardıqları informasiya, eləcə də təbliğat xarakterli işlər barədə danışıb. Mətbuatda və sosial mediada yaydığı bir sıra məqalələrlə bağlı ermənilərdən 20 mindən çox mənfi reaksiya, hətta təhdid dolu mesajlar aldığını bildirib.

# Sevinc Fətəliyeva: "Aparılan uğurlu siyasət nəticəsində Azərbaycan bugünkü qələbəyə nail oldu"



"Azərbaycan sentyabrın 27-də başlamış əks-hücum əməliyyatlarını müvəffəqiyyətlə başa vurdu, Vətən müharibəsi bizim Böyük Zəfərimizlə başa çatdı. Beləliklə, Azərbaycan son iki yüz illik tarixində müharibədən ərazi itkisi ilə yox, ərazi bütövlüyünü bərpa edərək çıxır". SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva deyib.

Sevinc Fətəliyeva bildirib ki, noyabrın 8-də Şuşanın erməni işğalından azad edilməsi çox böyük tarixi hadisədir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin bu müjdəsi Azərbaycan xalqı tərəfindən böyük coşğu ilə qarşılandı. 28 il işğal altında olan Şuşanın azad edilməsi həm böyük siyasi, həm böyük strateji, eyni zamanda, çox böyük mənəvi məna daşıyır. Millət vəkilinin sözlərinə görə, Şuşanın azad edilməsindən bir gün sonra-Dövlət Bayrağı Günündə daha 72 yaşayış məntəqəsinin, ümumilikdə isə 300-dən çox yaşayış məntəqəsini işğaldan azad edilməsi Nikol Paşinyanı məcbur etdi ki, noyabrın 10-da Rusiya Prezidenti, Azərbaycan Prezidenti və Ermənistanın baş naziri arasında bəyanatı imzalasın: "Bu bəyanat Ermənistanın hərbi kapitulyasiyası deməkdir və Azərbaycana maksimum sərf edən sənəddir. Bu bəyanat uzun illər davam edən işğala son qoyur. Razılaşmaya əsasən Ermənistan öz üzərinə Kəlbəcər, Laçın və Ağdam bölgələrindəki işğalçı qoşunlarının çıxarılması barədə öhdəliklər götürür. Beləliklə, məcburi köçkün olan insanlarımızın 30 illik həsrətinə son qoyulur, onlar öz doğma torpaqlarına qayıdacaqlar. Diqqət çəkən bir məqam da ondan ibarətdir ki, imzalanmış bəyanatda Dağlıq Qarabağın statusu haqqında bir kəlmə də yoxdur. Bu o deməkdir ki, Qarabağa heç bir status, muxtariyyət verilmir. Eyni zamanda, Naxçıvanın Azərbaycanın əsas hissəsi ilə əlaqəsi bu sənəddə təsbit edilir. Bununla da, Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə quru yollarla birləşdirmə istiqamətində tarixi addım atıldı. Bununla da, Naxçıvanın 30 illik blokadasına son qoyulur, eyni zamanda türk dünyasının yerüstü tranzit-rabitə əlaqələri bərpa edilir".

Deputat söyləyib ki, imzalanmış bəyanata əsasən, münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəzin yaradılması böyük əhəmiyyət kəsb edir. Bu mərkəzdə Rusiya və Türkiyə hərbçiləri fəaliyyət göstərəcək. Bu o deməkdir ki, Türkiyə rəsmi qaydada bu münaqişənin gələcək həlli və atəşkəsə nəzarət etmək işində rol oynayacaq. Yəni, bölgədə gələcək əməkdaşlıq formatında Türkiyə və Rusiya iştirak edəcək. Hər iki ölkə bizim üçün dost, qonşu ölkədir. Bununla da, başqa kənar oyunçuların bölgədə təraf olmaq cəhdləri aradan qalxır.

"Ümumiyyətlə, bu münaqişə son yüz il ərzində birinci ərazi üzrə münaqişədir ki, həll olundu. Ölkəmizin də bu siyasi qələbənin qazanılmasında hərbi qələbəmiz müstəsna rol oynayır. Eyni zamanda, son illər ərzində ölkəmizdə aparılan inkişaf siyasəti, mövcud olan gözəl ab-hava, xalq-iqtidar birliyi, siyasi münasibətlərin müsbət səviyyəyə qalxması, beynəlxalq nüfuzumuz, beynəlxalq arenadakı fəaliyyətimiz, ordu quruculuğu təbii ki, bu qələbəmizi şərtləndirdi. İqtisadi gücümüz qələbəni əldə etmək potensialımızı təmin etdi. Azərbaycan iqtisadi cəhətdən heç bir ölkədən asılı deyil, heç bir beynəlxalq maliyyə qurumundan asılı deyil. İqtisadi müstəqilik ordumuzu gücləndirmək üçün imkan yaradıb. Ordumuzun tələbatı böyük dərəcədə daxili istehsal hesabına təmin edilir. Bütün regional layihələrdən təcrid olunmuş Ermənistandan fərqli olaraq, Azərbaycan transmilli layihələr ilə regionda tamamilə yeni mənzərə yaratdı. Azərbaycan regionun enerji xəritəsini, nəqliyyat xəritəsini yenidən tərtib etdi. Azərbaycanın təşəbbüsləri təkcə xalqımızın maraqlarını təmin etmir, bir çox ölkələrin maraqlarını təmin edir, o cümlədən region ölkələrinin inkişafına mühüm təsir edir. Bütün bunlar Azərbaycanın beynəlxalq nüfuzunun güclənməsində vacib rol oynadı. Xüsusi qeyd edilməlidir ki, Azərbaycan ötən illər ərzində bütün beynəlxalq platformalarda ərazi bütövlüyümüz dəstəkləyən sənədlərin qəbuluna nail olmaqla münaqişənin həllinə hüquqi zəmin yaratdı. Dünyanın bütün aparıcı beynəlxalq təşkilatları münaqişə ilə bağlı ədalətli qətnamələr, qərarlar qəbul edərək birmənalı şəkildə Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıdı. Məhz aparılan bu uğurlu siyasət nəticəsində Azərbaycan bugünkü qələbə nail oldu"-deyə, S.Fətəliyeva vurğulayıb.

## Erməni KİV-i yazır: "Bu gözəlliyi 15 noyabrda təhvil verməliyik!"



Bura Kəlbəcərdir. Erməni sosial şəbəkə kanalları yazıblar ki: "Bu gözəlliyi 15 noyabrda təhvil verməliyik". Sosial şəbəkələrin erməni seqmentində şərh bölümünlərində isə ağlaşma qurublar...

*Aysel Məmmədova*

## Tezliklə Şuşada ASAN xidmət yaradılacaq

Şuşada "ASAN xidmət" yaradılacaq. Bunu SİA-ya açıqlamasında "ASAN xidmət"in mətbuat katibi Elnur Əliyev deyib. O, bildirib ki, Şuşada "Asan xidmət"in açılması ilə əlaqədar münaqişənin daha ilk günlərindən layihələr hazırlanıb. Bu isə mütləq qələbəyə inamın təcəssümü idi".

Mətbuat katibi qeyd edib ki, "ASAN xidmət" Şuşa ilə bağlı videoçarx paylaşıb: "Belə ki, videopaylaşımda işğaldan azad olunan şuşada tezliklə "ASAN xidmət" mərkəzinin yaradılacağına və burada vətəndaşlara xidmət göstəriləcəyinə əminlik ifadə olunub".

# Bəşər mədəniyyətinə qarşı vəhşilik

*İƏT Dağlıq Qarabağda və ətraf rayonlardakı tarixi abidələrin vəziyyəti ilə əlaqədar dərin narahatlığını bildirib*



***Bu gün 30 ilə yaxın erməni işğalçıları tərəfindən işğal olunan torpaqlarımız azad nəfəs alır. İşğaldan azad olunmuş qədim tarixi torpaqlarımızda Ermənistanın hərbi birləşmələri yaşayış yerlərini, insan məskənlərini, eləcə də milli mədəniyyət abidələrimizi qəddarcasına dağıdıblar. Erməni terrorçuları tərəfindən zəbt olunmuş qədim Azərbaycan torpaqları olan Dağlıq Qarabağ və ona bitişik rayonlarda 13 dünya əhəmiyyətli - 6 memarlıq və 7 arxeoloji, 292 ölkə, 330 yerli əhəmiyyətli memarlıq, arxeoloji, bağ, park, monumental və xatirə abidələri, sənət nümunələri qalmışdı. Həmçinin bu ərazilərdə 40 mindən artıq əşyanın toplandığı 22 muzey, yüzlərlə mədəni-maarif müəssisələri də düşmən tapdağı idi.***

İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş Katibliyi İslam irsinin ayrılmaz hissəsi olan Dağlıq Qarabağda və ətraf rayonlardakı tarixi abidələrin vəziyyəti ilə əlaqədar dərin narahatlığını bildirir. Bu haqda İƏT-in yaydığı bəyanatda bildirilir ki, maddi və mənəvi dəyərlərin, xüsusən Qubadlı rayonunun bu yaxınlarda azad edilmiş Məmər kəndindəki məscidin qəsdən dağıdılması və talan edilməsi, tarixin mənimsənilməsi və saxtalaşdırılması təcavüz siyasətinin bariz sübutudur. Bəyanatda qeyd olunur ki, işğal olunmuş ərazilərdə əsrlərboyu qalmış dini-mədəni irslərdən sui-istifadə beynəlxalq qanunların və konvensiyaların, o cümlədən "Silahlı Münaqişələr zamanı Mədəni Mülkiyyətin Qorunmasına dair 1954-cü il Haaqa Konvensiyası"nın və 1954, 1999-cu il protokollarının açıq şəkildə pozulmasıdır. xarici işlər nazirləri Şurasının 46-cı iclasında İƏT "İslamın müqəddəs yerlərinin qorunması haqqında" 3/46-S saylı Qərar qəbul edib. Qərarda erməni təcavüzkarları tərəfindən Azərbaycan Respublikasında İslama aid tarixi və mədəni irsin tamamilə məhv etmək məqsədi, barbar hərəkətləri pislənilib".

Ermənilərin bu əməli "Arxeoloji irsin qorunması haqqında" 1992-ci il tarixli Avropa Konvensiyası və "Silahlı münaqişələr zamanı mədəniyyət abidələrinin qorunması haqqında" Avropa Konvensiyasına tam ziddir. Onların etdikləri "Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyası, UNESCO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" 1972-ci il Konvensiyası ilə də ziddiyyət təşkil edir. Məlumdur ki, zəngin ədəbi və mədəni irsi olan Azərbaycan xalqının yaşadığı bölgələr əsrlər boyu işğalçıların hücumlarına və vəhşiliklərinə məruz qalmış, həmin işğallar nəticəsində yaxın və uzaq tarixi keçmişimizdən xəbər verən bir çox tarixi mədəniyyət abidələrimiz məhv olmuşdur. Əslində, ermənilərin etdikləri yalnız Azərbaycana qarşı yönəlməyib. Bu, bəşər mədəniyyətinə qarşı vəhşilik və təxribatdır. Bütün məscidlərimiz ermənilər tərəfindən dağıdılmışdır.

Xocalı, Ağdam, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarındakı kurqanlarla yanaşı, Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki qəbiristanlar, türbələr, məzarüstü abidələr, məscidlər, məbədlər, Qafqaz Albaniyasına məxsus abidələr və digər milli abidələrimiz məhv edilib. Memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən XIX əsrin ikinci yarısında Şuşa şəhərində inşa edilmiş Gövhər ağa məscidi erməni terrorunun qurbanına çevrilib. Təkcə İslam mədəniyyətinə aid abidələr deyil, digər abidələr də məhv edilib. İlk insan məskənlərindən olmuş məşhur Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kurqanları hərbi məqsədlər üçün istifadə edilib. Bundan başqa, Şuşada Tarix Muzeyi, Daş Sənətkarlığı Muzeyi, Dərman Bitkiləri Muzeyi, Üzeyir Hacıbəylinin, Bülbülün, Xurşidbanu Natəvanın və Mir Möhsün Nəvvabın ev muzeyləri fəaliyyət göstərirdi. Bütün bu muzeylər 1992-ci ilin mayında Şuşanı işğal etmiş erməni vandalları tərəfindən dağıdılaraq, yerlə-yeksan edilmiş, onların eksponatları qarət edilərək, aparılmışdır. Yalnız Xalça Muzeyində saxlanılan və 300-dən artıq əl işi olan xalçaların 145-ni xilas etmək mümkün olmuşdur. Məkrli niyyət və mənfur siyasət sahibi olan ermənilərin azərbaycanlılara qarşı törətdikləri vandalizm hərəkətləri hər zaman pislənilib. 2006-cı ilin iyununda ermənilərin işğal edilmiş Xocavənd ərazisində törətdikləri yanğınlar nəticəsində yaşı 800 il olan XII əsr abidəsi Qaraca Çobanın qəbri yanmışdır.

Ermənilərin törətdikləri yanğınlar e.ə. II minilliyə aid olan Nərgiztəpə mədəni abidəsini külə döndərmiş, yanğının yaratdığı yüksək temperatur nəticəsində Qaraca Çobanın qəbri parça-parça olmuşdur. Yanğınlar nəticəsində qədim türk tayfalarına mənsub olan "Əfşarlar qəbiristanlığı" da məhv edilmişdir. Ermənilər Azərbaycan xalqının tarix və mədəniyyətinə dair fakt və həqiqətləri saxtalaşdırmaqla bərabər, abidələrin görünüşünü və yazılarını da süni şəkildə "erməniləşdirmişlər".

Şuşa mağarası, Şuşanın qala divarları, görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin Şuşadakı məqbərəsi, Füzulidə Şah Abbas karvansarası, Ağdam, Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl və s. yaşayış məntəqələrində olan mədəni-tarixi abidələrimiz ermənilər tərəfindən tamamilə dağıdılmış, Qarabağ ərazisindəki qədim alban kilsələri silah anbarlarına çevrilərək, yararsız hala salınmışdır. Bu gün Azərbaycan xalqı öz torpaqlarını işğaldan azad edib və Dağlıq Qarabağ və ona bitişik rayonlarda olan dini-mədəniyyət abidələrimiz tezliklə bərpa olunacaqdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Terror çağırışları edən vəzifəli ermənilər barədə cinayət işi başlandı



Ölkə ərazisində ictimai-siyasi sabitliyin pozulmasına yönələn təxribat, terror aktı və digər cinayətkar əməllərin törədilməsinə cəhdlərin qarşısının alınması, habelə bu tipli əməllərə yol vermiş şəxslərin beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilmələri üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən zəruri tədbirlərin görülməsi davam etdirilir.

Baş Prokurorluğun Mətbuat xidmətində SİA-ya verilən məlumatda bildirilir ki, həyata keçirilən kompleks tədbirlərin davamı kimi, Azərbaycan Respublikasının Baş Prokurorluğunda aparılmış araşdırmalarla bəzi internet resurslarında terrorçuluğa açıq çağırışların edilməsi ilə bağlı ayrı-ayrı faktlar təhlil edilib.

Araşdırmalarla Ermənistan Respublikasının vətəndaşı, işğalçı ölkənin "Demokratiya naminə Tərəfdaşlıq" Mərkəzinin sədri, habelə "Erməni dinləri" veb-saytının redaktoru Stepan Daniyelyan və erməni tarixçi, publisist, Ermənistan Milli Elmlər Akademiyası nəzdindəki "Erməni Soyqırımı Muzey-İnstitutu"nun direktoru, İrəvan Dövlət Universitetinin müəllimi, "Prospekt" Regional və Siyasi Araşdırmalar Mərkəzinin İdarə Heyətinin üzvü Ayk Demoyanın özlərinə məxsus sosial şəbəkə və digər internet səhifələrində ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazilərində ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, insanların həlak olması, onların sağlamlığına zərərin vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və bu kimi ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayışlar törətmək və belə hərəkətlərin törədiləcəyi hədəsi ilə müşayiət olunan terrorçuluğa açıq çağırışlar etmələri, o cümlədən eyni məzmunlu materialları yaymaları müəyyən edilib.

Faktla bağlı Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 12.2, 214-2 (terrorçuluğa açıq çağırışlar) maddəsi ilə cinayət işi başlanılmış və istintaqın aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə həvalə edilib.

Hazırda iş üzrə intensiv istintaq-əməliyyat tədbirləri davam etdirilir. Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən ölkə ərazisində, o cümlədən Azərbaycan Respublikasının vətəndaşlarına qarşı yönələn istənilən hüquqa zidd əməlin qarşısının alınmaqla, cinayətkar əməllərə yol vermiş şəxslərin beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilmələri üçün bütün zəruri tədbirlərin görülməsi təmin ediləcəkdir.

# 10 noyabr - Böyük Qələbəmizin NİDASI



***30 il gözlədiyimiz Qarabağımızın QƏLƏBƏ NİDASI! Xalqımızın 30 illik həsrətinə Şanlı, Güclü Ordumuzun apardığı 45 günlük müharibə son qoydu. Azərbaycan və Rusiya prezidentləri, eyni zamanda Ermənistanın baş nazirinin imzaladığı müqavilə Böyük Qələbəmizin NİDASI oldu və Azərbaycan meydanda və masada Qələbə tarixini yazdı. İşğalçı Ermənistan Qarabağda təslim oldu.***

Yaşa Ali Baş Komandanımız, 30 illik həsrətimizə son qoydun! Gözün aydın, Azərbaycanımız, şəhidlərimizin qanı yerdə qalmadı! Fədakar və qəhrəman əsgərləri olan bir Ordunun torpaqları əbədi olaraq işğal altında qala bilməzdi, qalmadı da.

Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşü zamanı bildirdi ki, "Bu qələbə Azərbaycan tarixində əbədi qalacaqdır. Həm döyüş meydanında, həm danışıqlar masası arxasında biz istədiyimizə nail ola bildik!".

Ali Baş Komandanımız onu da bildirdi ki, bütün bu qələbələrimiz şücaətli əsgərlərimizin qəhrəmanlığı nəticəsində əldə olunub: "Mənim birinci təbrik etdiyim insanlar sizsiniz və sizin simanızda bizim bütün qəhrəman döyüşçülərimizdir. Gəlmişəm deyim ki, mən hər zaman sizinlə bir yerdə olacağam. Mənə arxalana bilərsiniz. Bizim qəhrəman döyüşçülərimiz gələcək həyatda da daim mənim nəzarətim altında olacaqlar. Bir daha sizi təbik edirəm, tezliklə sağalın, adi həyata qayıdın. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

Bəli, bu gün işğaldan azad edilən torpaqlarımız, məhz rəşadətli Ordumuzun və müzəffər Ali Baş Komandanımızın döyüşkənliyi, əzmi, qətiyyəti sayəsində mümkün oldu. Torpağımızın hər qarışı uğrunda canlarını fəda edən əziz şəhidlərimizin ruhları şad olsun. Onların ruhları qarşısında baş əyirik! Bu gün işğaldan azad olunan torpqlarımızda üçrəngli Azərbaycan Bayrağı dalğalanır. Dövlət başçısı onu da deyib ki, bizim mübarizəmiz haqq mübarizəsidir. Artıq bu gün Qarabağımız Azərbaycandır! Bəli, bu sevinc, bu qələbə güclü ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin uğurlu, proqmativ siyasətinin nəticəsində əldə olundu. Çünki güclü Ordu ilə güclü Dövlət anlayışı vəhdət təşkil edir. Çünki müstəqil dövlətin nüfuzu iqtisadi, siyasi, elmi potensialı ilə yanaşı, onun malik olduğu ordusunun qüdrəti ilə də ölçülür. Və ən sevincli tariximiz noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edilməsi oldu. Torpaqlarımızın hər qarışı işğaldan azad olduqca sevincimiz birə on qat artır.

Azərbaycan Prezidenti, Ali Baş Komandanımız İlham Əliyevin dediyi kimi, Şuşasız bizim işimiz yarımçıq olar: "İşğal edilmiş torpaqların hər bir qarışı, hər bir şəhər bizim üçün doğmadır, əzizdir. Mənim üçün hər bir kəndin dəyəri, qiyməti o biri kəndlə müqayisədə, o biri şəhərlə müqayisədə eynidir, bərabərdir. Ancaq siz də yaxşı bilirsiniz ki, Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Bu, bizim tarixi şəhərimizdir, qədim mədəniyyət ocağıdır. Şuşa Azərbaycan xalqına bir çox istedadlı, dahi şəxslər bəxş edibdir. Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar".

Dövlətimizin başçısı vurğulayıb ki, Şuşanın işğaldan azad edilməsi qarşıda duran hədəflər arasında xüsusi yer tutur: "Biz buna çalışmalıyıq, biz buna nail olmalıyıq. Bu, nə zaman olacaq? Əlbəttə ki, onu yaxın gələcək göstərər".

Bu zaman çox keçmədi. 10 noyabrda Qarabağımız tam Azəzərbaycanın oldu. Qəhrəmanlıq salnaməsi yazan Azərbaycanım, bütün türk xalqım Qələbən mübarək! Haqlı qələbəmiz mübarək! Bu zəfərin təminatçısı Müzəffər Ali Baş Komandanımız İlham Əliyev və rəşadətli Azərbaycan Ordusu yaşatdı. Eşq olsun Ali Baş Komandanımız İlham Əliyevə! Eşq olsun qüdrətli Azərbaycan Ordusuna!

Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan!".

***MEHDİ BALABƏYOV,***
***YAP Şabran rayon təşkilatının sədri***

# Nikol Paşinyan özünü sərsəm fikirləri ilə təmizə çıxarmağa cəhd edir

*Müxalifət və xalq isə onu bağışlamayacağını və dərhal istefasını tələb edir*

“Belə bir kədərli sənədə imza atmaqla bilirdim ki, mən nəinki siyasi, həm də fiziki təhlükə altındayam, lakin mənə 25 min əsgərin həyatını qorumaq daha vacib idi”. SİA xəbər verir ki, bu barədə Ermənistanın baş naziri Nikol Paşinyan xalqa müraciətində bildirib.

“Nəyə görə istefa vermədim, sənədə imza atmamaq üçünmü? Bu, fərarilik və ağır situasiyanı başqa liderə saxlamaq cəhdi olardı”, deyə özünü təmizə çıxarmağa səy göstərən Paşinyan yenidən sərsəm olduğunu növbəti ifadələri ilə sübut edərək bildirib ki, həmin sənəd Qarabağ münaqişəsinin birdəfəlik həllini nəzərdə tutmur: “Bu sənəd Qarabağda müharibənin dayandırılması üçündür. Qarabağ münaqişəsi onda olduğu





kimi, indi də həll edilməyib”.

Erməni baş nazir xalqı necə və nəyə görə aldatdığını da etiraf etmək məcburiyyətində qalıb, eyni zamanda guya “üç orduya” qarşı döyüşdüklərini (?!) iddia edən gülünc düşüncəsini bölüşüb: “Mən və Qarabağın “prezidenti” (dırnaqlar bizimdir) kədərli vəziyyətlə bağlı situasiya barədə tam informasiya vermirdik. Biz Qarabağın hər santimetrini saxlamaq üçün hər şey edirdik. Biz “üç orduya” (dırnaqlar bizimdir) qarşı savaşırdıq. Ancaq təəssüf ki, biz tam ölçüdə bizim ordumuzu dəstəkləyə bilmədik”.

### Erməni baş nazir: “Biz əvvəlki hakimiyyətin nümayəndələrinə imkan verməyəcəyik ki, ölkədə xaos yaratsınlar”

“Hə, imzalanmış sənəd Ermənistan üçün çox pisdir, amma daha pis etmək də olmaz. Sənəd bütün regional yolların blokadadan çıxmasını və İranla Ermənistan arasındakı dəmir yolunun açılmasını nəzərdə tutur. Rusiya sülhməramlıları Qarabağ sakinlərinin təhlükəsizliklərini bütün ərazidə təmin edəcəklər. Onlar Stepanakert (Xankəndi) ilə Yerevan (İrəvan) arasındakı yol bağlantısının sabitliyini təmin edəcəklər”, Paşinyan bildirib.

O, qeyd edib ki, hazırda əsas vəzifə ölkədəki sabitliyi qorumaqdır. “Biz əvvəlki hakimiyyətin nümayəndələrinə imkan verməyəcəyik ki, ölkədə xaos yaratsınlar. Bizim gələcəyimiz var. Biz nəticələr çıxarmaqla və səhvlərimizi anlamalıyıq. Biz gərək güclü Ermənistan yaradaq”, Paşinyan bildirib.

“Problem ondadır ki, komandirin əsas funksiyası əsgər qarşısında qoyulan tapşırığın icra olunmasıdır. Lakin əsgər növbəti hadisələrə təsir edə bilmirsə, onda əsgər həlak olmalı deyil, vətən əsgərin həyatına görə qurbanlara getməlidir. Məhz buna görə də mən həmin kədərli sazişə imza atdım. Mən 25 min əsgərin həyatını öz karyeramdan və şəxsi həyatımdan üstün tutdum”, Nikol Paşinyan bildirib. Lakin erməni baş nazirin nağılları nə erməni xalqının, nə də onun siyasi opponentlərinin maraqlarına cavab vermir.

### Artur Vanetsyan: “İnandırıram ki, bu cürsiyasi və xəyanətkar həbslərlə bizim səsimizi batırmağa müəssər olmaq mümkün deyil, satqın getməlidir”

Belə ki, İrəvanda keçirilən etiraz aksiyalarında, eləcə də KİV-lərdə çıxış edən adamlar Nikol Paşinyanın onları aldatdıqlarını düşünürlər. Çünki ötən müddət ərzində yüzlərlə şəxs həbs edilib, müxalifəti təmsil edən deputatların toxunulmazlıq hüquqları belə nəzərə alınmayaraq, onlar Milli Təhlükəsizlik Xidmətinin əməkdaşları tərəfindən saxlanılıblar. Daha dəqiq desək, qarşı tərəflər müharibənin davam etdiyini iddia etməklə yanaşı, həm də imzalanan sənədin qüvvədən düşməsini tələb edirlər. Habelə Paşinyanı istefaya çağırmaqda da davam edirlər.

Məsələn, vaxtilə Nikol Paşinyanla ailəvi dostluq edən, hətta zamanında bu hökumətdə Milli Təhlükəsizlik Xidmətinə rəhbərlik etmiş, hazırda isə müxalifətə keçməklə “Vətən” partiyasına liderlik edən general-mayor Artur Vanetsyan bildirib. SİTAT: “Satqın Nikol qorxaqcasına “artsaxı” (Qarabağı) verdi və qəbul edilmiş rüsvayçı sənədə qarşı mübarizə aparan müxalifətin bir sıra liderlərini saxlatdırdı. İnandırıram ki, bu cür siyasi və xəyanətkar həbslərlə bizim səsimi batırmağa müyəssər olmaq mümkün deyil, satqın getməlidir”.

Vanetsyan qeyd edib ki, istər həbsxanada, istərsə də azadlıqda olsa belə, o, həmin sənədə qarşı davamlı mübarizəsini aparacaq. Müxalifətçi lider erməniləri ruhdan düşməməyə və mübarizəni davam etdirməyə səsləyib.

**Rövşən RƏSULOV**

## Gevork Kostanyan: “Azərbaycana 50 milyard dollar ödəməliyik”



Ermənistanın sabiq baş prokuroru Gevork Kostanyan bəyanatla çıxış edib. SİA xəbər verir ki, onun bəyanatını işıqlandıran news.am yazır. SİTAT: “Bu sənədlə biz nəinki əraziləri itirdik, həm də Ermənistanın üzərinə 50 milyard dollar öhdəlik qoyuldu ki, ona görə biz və bizim nəsillərimiz ödəməli olacağıq”.

Kostanyan hələ iki il əvvəl xəbərdarlıq etdiyini xatırladıb və bildirib ki, həmin xəbərdarlığında Azərbaycanın Ermənistana qarşı kompensasiya ilə bağlı iddia hazırladığını deyib. Belə ki, Ermənistan Qarabağda və yeddi rayonda Azərbaycana maddi ziyan vurub. Eyni zamanda, Azərbaycan beynəlxalq təşkilatı cəlb edərək, zərərin hesablanmasını müəyyən edib və onun dəyəri 50 milyard dollarla ölçülüb.

Sabiq baş prokuror Azərbaycan Prezidentinin həqiqətən də Ermənistana qarşı iddia qaldırması barədə hazırlıq işlərinin aparılmasını bəyan etdiyini də deyib.

“İnanıram ki, bu istiqamətdəki işlər aktivləşib, belə ki, Ermənistanın baş naziri noyabrın 10-da məlum sənədə imza atmaqla etiraf edib ki, Ermənistan respublikası öhdəlik götürən subyektdir və bu vasitə ilə istənilən zərərə görə məsuliyyət daşıyır”, deyə Kostanyan bəyanatında bildirib. SİTAT: “Bütün məsuliyyətimlə xəbərdarlıq edirəm ki, əgər biz zamanında Nikol Paşinyan tərəfindən imzalanan rüsvayçı sənədə qarşı savadlı və hüquqi əks-zərbə tədbirləri görməsək, bizim və gələcək nəsillərimiz üçün ciddi maliyyə problemləri də yaranacaq”. Ermənistanın keçmiş baş prokuroru qeyd edib ki, hadisələrin müvafiq inkişafından yayınmaq üçün Nikol Paşinyanın istefaya getməsi vacibdir.

# Paşinyan “təslim aktını” harda imzaladı?



“Nikol Vladimir Putinə yardım xahişi ilə əlaqədar məktub göndərib. Putin ona Xarici İşlər Nazirliyi vasitəsilə cavab verib. Onun nə dediyini siz başa düşmürsünüzmü? Əgər siz bunu da başa düşmürsünüzsə, vay bizim halımıza!”.

Ermənistan tarixinə “fəlakətlər ayı” kimi düşəcək, noyabr ayının ilk günlərində sabiq prezident Levon Ter-Petrosyan erməniləri rəzil vəziyyətə salan keçmiş köməkçisi, 2008-ci ildə keçirilən prezident seçkilərində onun seçki qərargahının kordinatoru olmuş baş nazir N.Paşinyanın Rusiya prezidentinə göndərdiyi xahiş-məktub barədə danışarkən belə deyirdi.

N.Paşinyan bundan 10 il əvvəl keçirilmiş prezident seçkilərində namizədliyini irəli sürmüş Aşot Bleyanın seçki qərargahının üzvü olmuşdu. Erməni siyasətçiləri içərisində müdrikliyi, reallıqları görmə bacarığı ilə seçilən A.Bleyan 1992-ci ildə Ermənistan parlamentinin 55 deputatatının imzaladığı “sülh təklifi” ilə Azərbaycana gəlmişdi və xarici qüvvələrin iştirakı olmadan birbaşa sülh müqaviləsi imzalamağı, dostluq münasibətləri yaratmağı təklif etmişdi. Özünün hazırladığı sənədlə Azərbaycanın, Ermənistanın prezidentlərinə, parlamentlərinə, hökumətlərinə, siyasi xadimlərinə, ziyalılarına müraciət edərək, Dağlıq Qarabağın Azərbaycanın tərkibində statusunun bərpa edilməsini ehtiva edən sülh müqaviləsini imzalamağı təklif etmişdi. Təəssüf ki, onun bu təşəbbüsü layiqincə qiymətləndirilmədi və heç bir nəticəyə nail ola bilməyən Bleyan kor-peşman geri qayıtmalı oldu. Son dəfə 2016-cı il, mayın 11-də “Birinci informasiya”ya açıqlama verən A.Bleyan bildirdi ki, Qarabağda növbəti müharibə Ermənistanın iflası olacaq. “Müharibə bizim üçün heç bir nəticə verməyəcək. Bu bizim üçün avantüra və iflas deməkdir”.

Ermənistanda çox az rast gələnən iki müdrik siyasətçinin seçki qərargahında çalışan, 2016-cı ilə qədər münaqişənin nizamlanması ilə əlaqədar Levon Ter-Petrosyanın mövqeyini müdafiə edən N.Paşinyan sonradan sağalmaz “populizm xəstəliyi”nə tutuldu və bəyan etdi ki, “bizim Azərbaycana veriləcək torpağımız yoxdur”.

Ermənistandakı “Soros çevrilişindən” sonra hakimiyyəti ələ keçirən və baş nazir postuna yiyələnən N.Paşinyan tarixə yeni erməni dövləti yaradan şəxs kimi düşmək istəyirdi, ancaq ermənilərə ən dəhşətli fəlakətləri yaşadan şəxsiyyətsiz birisi kimi düşdü. O, nadanlığı ucbatından yeni Azərbaycan ərazilərini işğal edərək Dağlıq Qarabağın müstəqilliyini təmin etməyin mümkün olacağına inanırdı, yaxud, inandırılmışdı. İlk cəhd 2020-ci ilin iyulunda Tovuz istiqamətində oldu. Alınmadı. Azərbaycan rəhbərliyi məqsədyönlü şəkildə silahlı qüvvələrimizin bütün potensialını ortaya qoymadı və Ermənistan ordusuna yüngülvari “qulaqburması” verməklə kifayətləndi.

Nadanlığı və avantüristliyi üzündən özünü qalib sayan və növbəti təxribatla məqsədinə nail olacağını düşünən N.Paşinyan erməni ordusuna sentyabrın 27-də Azərbaycan ərazisinə hücum əmrini verdi. Qısa müddətdən sonra anladı ki, bu əslində hücum əmri deyil, onun siyasətçi və insan kimi ölümünə gətirib çıxaracaq “intihar fərmanı”dır.

Qısamüddətli müstəqillik tarixinin ən ağır məğlubiyyətini yaşayan Ermənistanın baş naziri N.Paşinyan hakimiyyəti nəyin bahasına olursa-olsun saxlamaq üçün uzun müddət erməniləri qırğına verməkdə davam etdi. Azərbaycan ordusunun zəfər yürüşünü yalnız xarici güclərin köməyi ilə dayandırmağın mümkünlüyünü bilən erməni baş nazir V.Putinə son dəfə növbəti məktub-yalvarışını göndərərək ondan yardım istədi. Cavabı rənqina uyğun olan rəsmi şəxsdən-dövlət başçısından və onun administrasiyasından deyil, Xarici İşlər Nazirliyindən aldı. Başqa cür ola da bilməzdi. Özünə, rəhbərlik etdiyi dövlətə hörmət etməyən birisinə Rusiyanın ehtiramla yanaşacağını düşünmək sadəlövhlük olardı. Üstəlik V.Putin 2 il əvvəl Ermənistan baş nazirinin Rusiya prezidentinə qarşı nümayiş etdirdiyi saymazyana davranışı qətiyyən unutmamışdı və onu aşağılamaq imkanından hər fürsətdə maksimum yararlanmağa çalışırdı.

Ermənilərin bütün bunları görməməzliyə vurmalarını, yenə də bu alçaldıcı davranışı və növbəti “rədd cavabı”nı anlamaq istəmədiklərini görən Levon Ter-Petrosyan - “əgər siz bunu da başa düşmürsünüzsə, vay bizim halımıza!”-dedi və bir neçə gün sonra, noyabrın 10-da Ermənistan tarixinin ən şərəfsiz hadisəsinə şahidlik etdi. N.Paşinyan “erməni hərbçilərinin israrlı xahişlərini nəzərə alaraq” Azərbaycan qarşısında məğlubiyyətini etiraf edərək, “təslim aktına” imza atdı və ermənilərin qəzəbindən qorxaraq, qaçıb gizləndi. Sonradan, prezident İ.Əliyev bəyanatı gizli şəraitdə imzalamasına yaralı hərbçilərlə görüşündə özünəməxsus yumorla diqqət çəkdi və “Paşinyan, harda imzaladın?”-deyə sual verdi.

“Qələbə bəyanatı”nı imzaladıqdan sonra xalqa müraciət edən müzəffər Ali Baş Komandan İ.Əliyev N.Paşinyana müraciətlə-”nə qədər mən varam, status olmayacaq”-deyərək, qəti mövqeyini ortaya qoydu. Bu bəyanatdan sonra daha bir “şok” yaşayan ermənilər Azərbaycanın 1997-ci ildə təklif etdiyi və onların qəbul etmədiyi “ən yüksək muxtariyyat” statusu barədə L.Ter-Petrosyanın sözlərini peşmanlıq hissi ilə xatırlamaq məcburiyyətində qaldılar: “Vaxt gələcək, bu gün qəbul etmədiklərimizi gələcəkdə xahiş edəcəyik, yalvaracağıq, ancaq ala bilməyəcəyik”.

***Abutalıb Səmədov,***
***Azərbaycan Naminə Alyans Partiyasının sədri.***

# “Gorbagor” dığalar...

***Ermənistan hakimiyyəti bütün ermənilərə nəinki xəyanət etdi, həm də həyasızcasına yalan danışaraq, kütləni aldatdı, bugünkü acınacaqlı günə qoydu. Bu aldatmaların, yalanların, nəticədə xəyanələrin fonunda işğalçı dövlət hər şeyindən məhrum oldu.***



Canlı qüvvəsinin böyük əksəriyyətini, hərbi texnikasını, silah sursatını, nəticə etibarı ilə, çox böyük həcmdə maddi vəsaitlərini itirən Ermənistan cəmiyyəti nələrdən məhrum olduğunun fərqindədir. Bundan sonra yardımlara belə ümidləri kəsilən ermənilər yaxşı başa düşürlər ki, dünyaya səpələnmiş dığaların nəinki topadıqları vəsaitləri, eləcə də səfərbər etdiklərini puça çıxarmaqla, etibarlarını da itirdilər və deməli, hər şeylərini itirdilər. Məhz bunu başa düşənlərin naləsi bütün Ermənistanı bürüyüb və bu işğalçı ölkə silkələnməkdədir.

Əvvəla, balalarını boş yerə, yəni, özlərinə aid olmayan torpaqlar, eləcə də uğursuz və ağılsız hakimiyyətin axmaq siyasəti uğrunda qurban verən, itirən insanların məğlubiyyət xəbərindən sonra tüstüləri təpələrindən çıxır və bunu da qəbul edə bilməmələri, bu səbəbdən də narazılıqları anlaşılandır. Digər tərəfdən də, aldadılaraq, əsgərlərinin qələbələr qazandığı barədə qulaqları doldurulan, qəflətən də, bir zamanlar qanları bahasına zəbt etdikləri, 30 il də qorumaq üçün külli miqdarda məsrəf edib istehkamlar qurduqları torpaqların əldən getdiyini bilən erməni cəmiyyəti ayağa qalxıb və bu işğalçı ölkə vətəndaş müharibəsi astanasındadır.

İndi Ermənistan vətəndaşları da, bütün dünya erməniləri də düşünürlər ki, Paşinyanın xəyanəti Serj Sarkisyanın əməllərindən daha ciddi və daha ağrılıdır onlar üçün. Yaşadığı yerdən asılı olmayaraq hər bir erməni indi ən çətin günlərini yaşayır. “Maariflənmiş Ermənistan”-ın lideri Edmon Marukyan dünən, prinsipcə, çox kəskin, lakin doğru deyirdi ki, Ermənistan artıq yoxdur. Əslində, kimin qiymətləndirməsindən asılı olmayaraq, bu qədər uzun illər ərzində çürük bir əqidəyə, boş xülyalara görə bütün mövcudluğunu təhlükə altında qoyan, sonda puç olan arzularının fonunda iqtisadiyyatından, inkişafından, geosiyasi mövqeyindən, olmayan nüfuzundan, daxili sabitlikdən belə, ümumiyyətlə, hər şeydən məhrum olan bir dövlətin “yox” olması doğru qiymətləndirmədir.

İndi bütün ermənilər düşünürlər ki, əgər Azərbaycan əsgərləri Şuşanın ətrafında, Kazançesots məbədinin yanında gülümsəyirsə, bu o deməkdir ki, Ermənistan artıq orada deyil və yoxdur. Düşünürlər ki, Ermənistan olmadığı üçün onlar da yoxdurlar. Etiraf da edirlər ki, Ermənistan Müdafiə Nazirliyinin rəsmiləri tərəfindən guya ki, şiddətlə səsləndirilən “Gorbagör” onların hər birinə yönləndirildi.

Ermənistan ictimaiyyəti onların bir millət adlandırmaq hüququndan məhrum edildiyi qənaətindədirlər və zənn edirlər ki, onları məhv ediblər, tapdalayıblar. Minlərlə ölən erməni əsgərlərinin qanının Ermənistan siyasətçiləri tərəfindən batırıldığı fikrində olanlar var və bunlar həddindən artıq çoxdur. Mübarizələrinin boşa çıxdığını, daha doğrusu boş yerə olan mübarizələrin belə bir sonluqla bitdiyini görən ermənilər şok yaşayırlar və dərk edirlər ki, uydurduqları “Gorbagör” onların özlərinə aid oldu.

Paytaxt Bakıda qalibiyyət səbəbi, münasibəti ilə tüğyan edən görüntülər ermənilərin köksünə dağlar çəkir. Bəli, əllərində Azərbaycan, Türkiyə bayraqları olan insanların qələbə sevincini, coşqusunu ermənilər acı göz yaşları ilə, məğlub durumları ilə seyr edirlər. Paytaxtımızda Azərbaycanın qələbəsi ilə əlaqədar bayram əhval-ruhiyyəsinin fonunda İrəvanda matəm yaşanır sözləri belə, yenə də bu işğalçı ölkədəki vəziyyəti tam təsvir edə bilmir və Ermənistan daha dərin çuxura, quyuya düşdüyü göz önündədir. Vətəndaş müharibəsi astanasında olan bu ölkənin faciəvi durumunu, videogörüntülərdə də təsdiqini tapan, paytaxtındakı etirazçı insan selinin qışqırtılarından, hökumət, eləcə də parlament binasına hücum çəkərək vandallıq, vəhşilik edənlərin hərəkətlərindən aydın görmək olur.

Ermənistan vətəndaşları özlərini və dünyadakı alçalan yerlərini düşünürlər. Yaşadıqları gerçəklik məhz budur. On minlərlə insan haqqında işğalçı ölkədə kimsə düşünməlidir. Əslində, işğal edərək özgə torpaqlarına sahib çıxmaq barədə yox, məhz aldatdıqları və çətin vəziyyətlə üz-üzə qoyduaqları ermənilər barədə düşünməlidirlər. Ermənistan vətəndaşlarının bundan sonrakı taleyi necə olacaq deyə düşünməlidirlər. Hədsiz dərəcədə böyük itgilər verərək yoxsul, hətta rəzil duruma salınan ölkə, vətəndaşlarının sosial problemlərini, necə həll edəcək? Müharibədə ölənlər bir tərəfə, yaralananlar, ələlxüsus əlil olanların sosial təminatı müflis duruma salınan ölkədə hansı vəsaitlər hesabına qarşılanacaq? İşğalçı ölkə bu acınacaqlı vəziyyəti ilə vətəndaşlarına hansı təminatı verə bilər? Ermənistan adında özü səfalət içində olan bir ölkə vətəndaşlarına, ən azından həyat, sığınacaq, iş, sosial təminat verə bilərmi? Baş nazir Paşinyan bu suallara cavab verməli olacağını əvvəlcədən düşünməli idi. Hansısa bunkerdə gizlənəcəyini, hansısa stulun altına girəcəyini dırnaqarası “qürurlu vətəndaşlarını” aldatdığı zaman bilməli idi. Hər şeydə əvvəlki hakimiyyətin günahkar olduğunu deməklə, məsuliyyətdən boyun qaçıran Paşinyan və onun əlaltıları, yumşaq desək, hiyləgərlik edirdilər və düşünürdülər ki, bununla hara qədərsə hakimiyyətlərini davam etdirə bilərlər.

Ermənistanın Müdafiə Nazirliyinin də yalanlarla özünü sığortalamağa çalışdığını işğalçı ölkə hakimiyyəti yaxşı bilirdi axı. Əvvəlcə, Azərbaycan Ordusunun Dağlıq Qarabağın şəhərlərində şəkil çəkdirdikdən sonra qaçdığını deyənlər, “Cəhənnəm dərəsi” barədə uyduranlar, daha sonra da “Gorbagor” əməliyyatından danışanlar Şuşanı əldən verdikdən sonra məğlubiyyətlərini etiraf etməklə, əslində, özlərinin gorbagör olduqlarını boyunlarına aldılar.

İndi də İrəvanın küçələrinə toplaşan, qışqırıq salan, hökumət, parlament binasında vandallıq edən, Paşinyanın xain adlandıran və istefasını tələb edən ermənilər məhz erməni baş nazirinin öz əmri ilə həbs edilir. Müxalifət liderlərinin böyük bir qismi artıq tutulub. Hələ bundan sonra bu həbslərin davam etməyəcəyinə, repressiyaların olmayacağına da kimsə zəmanət verə bilməz. Bu repressiyalar nəticəsində də hələ çox qurbanlar verəcək erməni xalqı. Ermənistan ictimaiyyəti, erməni xalqı, əgər buna xalq demək olarsa, nəinki tənəzzül, məhv olma təhlükəsi ilə üz-üzədir. İndi “Gorbagor” görün kim oldu? Xüsusən, bu adda əməliyyat planı quran Ermənistan Müdafiə Nazirliyi, bu ölkənin hakimiyyəti bu planın öz başlarında çatladığını yaxşı görürlər. Görbagör, görürlər ki, onlar özləridirlər, dığalardır...

*İnam Hacıyev*

## Lilit Galstyan: “Siyasi hakimiyyət bizi itgilərə məcbur etdi”



Dağlıq Qarabağda öz çirkin işlərini görən siyasi hakimiyyət, Ermənistanda da repressiya və siyasi təqiblərə üz tutmağı qərara alıb. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu sözləri “Daşnaksütyun” nümayəndəsi Lilit Qasparyan bu gün keçirdiyi mətbuat konfransında deyib.

O, qeyd edib ki, Ermənistanın siyasi hakimiyyəti vətəndaşları susdurmağa, erməni xalqının qəzəbini və hirsini yatırmağa məcbur edir. “Əlbəttə, ağzımızı bağlaya bilməyəcəyik, çünki biz yalnız mitinqlərə başlamış və narazılıq dalğasına rəhbərlik etməli olduğumuz 17 tərəf deyilik. Çünki erməni xalqı yanımızdadır və bu atılan ləyaqətsizlik damğasıdır”, deyə Lilit Qasparyan bildirib. Partiya nümayəndəsinin sözlərinə görə, “onlar təslim olan və məsuliyyət daşımaqdan imtina edən bir siyasi güclə məşğuldurlar”. “Siyasi hakimiyyət bizi itgilərə məcbur etdi”, deyə Lilit Galstyan bəyan edib.

*İnam Hacıyev*

## “Hraparak” qəzeti: “Saxta Ermənistan mifi dağıldı”



“Dünən hakimiyyətin iki il yarımdır formalaşdırdığı saxta Ermənistan mif məhv edildi, dağıldı. SİA Ermənistana məxsus hayeli.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə “Hraparaq” qəzeti yazır. Qəzet yazır ki, Facebook-da cəmiyyətin qeyd-şərtsiz dəstəyindən istifadə etdikləri yalançı “şərhlər” və “statuslar” darmadağın oldu.

Nəşrin yazdığına görə, Ermənistanda minlərlə insan Nikol Paşinyanın istefasını tələb edərək küçələrə axışıb və mitinqə təşəbbüs göstərən 17 partiya baş nazirin tələbləri yerinə yetirənə qədər mitinqlərin davam edəcəyini bəyan edir. Tələb isə, tərəflərin fikrincə, vəziyyəti dəyişdirə biləcək Nikol Paşinyanın istefasıdır. Qeyd olunur ki, saxta Ermənistan mifi barədə daha ətraflı məlumat qəzetin bugünkü sayında öz əksini tapır.

## Mane Qevorqyan: “Müxalifət xalqı azdırır”



“Ermənistanı dar siyasi və maddi maraqlar naminə siyasi gərginliyə doğru sürüklənir.” SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu sözləri baş nazirin mətbuat katibi Mane Qevorqyan deyib. “Bu gün cəbhə xəttində baş verən hadisələr, silahlı qüvvələrin texniki təchizatı, qoşunların doldurulması problemləri, Rusiya Federasiyası Prezidentinin vasitəçiliyi ilə aparılan danışıqların təfərrüatları da daxil olmaqla siyasi razılaşmanın müzakirəsi barədə onlara məlumat verilmədiyini qeyd edən bütün siyasi qüvvələr xalqla səmimi deyillər. Üstəlik, bu gün Ermənistanı dar siyasi və maddi maraqlar naminə siyasi gərginliyə sövq edirlər”, deyə baş nazirin mətbuat katibi öz Facebook səhifəsində yazıb.

Xatırladaq ki, İrəvanda 17 müxalifət partiyası liderinin təşkilatçılığı və minlərlə etirazçının iştirakı ilə mitinq keçirilmişdi. Etirazçılar, baş nazir Nikol Paşinyana etimad göstərilməməsi ilə bağlı Milli Məclisin növbədənkənar iclasının çağırılmasını tələb edirlər. Amma, iclas yetərsay olmaması səbəbindən baş tutmayıb. Onu da nəzərə çatdıraq ki, hakim “Mənim addımım” bloku, Milli Məclisin Ermənistandakı daxili siyasi vəziyyəti pozacaq və cəbhədəki vəziyyəti ağırlaşdıra biləcək heç bir iclasında iştirak etməyəcəyinə dair açıqlama verib.

*İnam Hacıyev*

# Azərbaycan-Ermənistan: Sülh sazişinin izahı və strateji əhəmiyyəti

## Qarabağın müharibə yolu ilə azad olunması yaxşı idi, yoxsa sülhlə? Cavab birmənalıdır!

***Azərbaycan və Ermənistan arasında əldə olunmuş sülh razılaşması və bu kontekstdə imzalanmış ilkin bəyanat ümumi müddəaları özündə ehtiva etdiyindən bir çox suallar açıq qalıb ki, bu da, bəzi vətəndaşlarımızda narahatlıq yaradır. Bu yazıda sazişin detalları və onun strateji əhəmiyyətini izah etməyə çalışacağıq.***

**Müharibəni sonadək aparmaq nə vəd edirdi?**

İşğal olunmuş Qarabağ bölgəsi 12 rayondan ibarət olan təxminən 15 min kv km-lik böyük bir ərazidir. Bu ərazi dünyadakı təxminən 30 ölkədən böyükdür. Bu 25-30 il ərzində Ermənistan Qarabağda çox güclü istehkamlar, müdafiə sədləri, saysız tələlər qurmuşdu.

Azad olunan əksər yaşayış məntəqələrində evlər, binalar, obyektlər demək olar ki tamamilə sökülüb. Bu materiallar ilə saysız hesabsız tunellər, kazarmalar, bunkerlər tikiblər. Çox güclü müdafiıə sistemləri, minalanmış sahələr yaradılmışdı. Bunları ordu ilə keçmək çox nəhəng itkilərə və böyük vaxt itkisinə səbəb ola bilərdi.

Lakin Azərbaycan komandanlığı əməliyyatları elə hazırlayıb həyata keçirdi ki, ən minimum itki ilə ən maksimum nəticə əldə edildi. Azərbaycan əsgərləri düşməni elə darmadağın etdi ki, heç bir müdafiə sistemi köməyinə gələ bilmədi. Qısa müddətdə 300-ə yaxın kənd, qəsəbə, şəhər azad olundu, əksər strateji nöqtələr ələ keçirildi.

Lakin nəzərə almaq lazımdır ki, Ermənistanın faktiki olaraq ümumilikdə 100 minə yaxın ordusu var idi ki, onun da ən pis halda 80 mini durur. 80 minlik ordu hissələri, üstəgəl PKK-dan və sair yerlərdən gətirilmiş minlərlə muzdlu döyüşçü müharibə davam edəcəyi halda uzun aylar müqavimət göstərəcəkdi, biz sonda qalib gəlsək belə, minlərlə əlavə şəhid verəcəkdik. Sərt şaxtalı qış boyu əsgərlərimiz çox çətin və təhlükəli relyefdə- dağlarda, meşələrdə çox ağır vəziyyətə düşəcəkdi. Gəncə və sair şəhərlər raket atəşlərinə məruz qalacaqdı, yüzlərlə mülki şəxs də həlak olacaqdı.

Qarabağı bizə xarabalıq halda, meşələrin tam yandırıldığı bir vəziyyətdə, hər yeri minalanmış vəziyyətdə, torpağın hər yeri təhlükəli kimyəvi maddələrlə və “Metsamor” AES-in radiaktiv tullantıları ilə zəhərlənmiş halda təslim edib çəkiləcəkdilər. “Sərsəng” su anbarı partladıla və 2-3 rayon su altında qala, on minlərlə insanımızın da evləri, torpaqları su altına qala bilərdi. Bunlar ermənilərin edə biləcəklərinin heç də hamısı deyil. Bir sözlə, qələbə sosial, iqtisadi, ekoloji fəlakət və çoxsaylı insan itkiləri müqabilində qazanılacaqdı.

**Ən çətin problemi necə həll etdik?**

Qarabağ probleminin həlli dünyada ən çıxılmaz vəziyyət kimi görünürdü. Burada elə bir formul tapmaq mümkün deyildi ki, həm hər iki tərəf razı qalsın, həm beynəlxalq hüquq və ədalət bərqərar olsun. Azərbaycan isə məsələni elə həll etdi ki, həm özünün bütün istəklərini yerinə yetirdi, həm də ermənilərin bütün bəhanələrini əlindən aldı.

Qarabağ problemi bizim əvvəllər təklif etdiyimiz kimi və baza prinsiplərinə əsasən, 5+2 və Qarabağa yüksək muxtar statusla həll edilmədi. Biz Qarabağın dağlıq hissəsinə dünyadakı ən yüksək statusu təklif edirdik, demək olar ki, yarımmüstəqil dövlət statusu. İndi isə Azərbaycan bütün Qarabağı geri qaytardı- yarısını döyüşlə azad etdi, yarısını isə sülhlə qaytarmağa məcbur olurlar. Heç bir statusdan da söhbət getmir.

Ermənistanın bütün rəhbərləri, ictimai xadimləri əmindirlər ki, ermənilər özləri orada yaşamaq istəməyəcək və yaxın vaxtda Qarabağda erməni qalmayacaq. Məsələn, Ermənistanın keçmiş hərbi naziri Ohanyan da sazişi təslim aktı adlandırıb və hər şeyin itirildiyini bəyan edib: “Sazişdəki şərtlərə görə, Dağlıq Qarabağ Azərbaycanın sadəcə Ermənistana dəhlizi olan yığcam bir ərazisinə çevrilir. Proses ona aparıb çıxaracaq ki, oralarda erməni qalmayacaq. Deməli, son nəticədə, sülhməramlıların fəaliyyəti faydasız olacaq”.




**Qələbəni nəyin müqabilində qazandıq?**

Bütün bu qələbə ilk növbədə Ali Baş Komandanın rəhbərliyi altında Ordumuzun, qəhrəman hərbçilərimizin hesabına əldə olundu. Qısa müddətdə Qarabağın 30 faizi gərgin döyüşlərlə azad edildi. Lakin müharibəni təkcə dövlət, təkcə ordu aparmır. Arxa cəbhədə də müharibə gedirdi. Xalqımız orduya maddi-mənəvi dəstəyi ilə, informasiya müharibəsindəki zəhməti ilə, kibermüharibədəki zərbələri ilə Ermənistanın hərbi, siyasi, iqtisadi, texnoloji cəhətdən çökməsində böyük rol oynadı.

Nəticədə, Ermənistan təslimçi sülhə razı olmaq məcburiyyətində qaldı və bizim bütün tələblərimiz artıqlaması ilə yerinə yetirilmiş oldu. Azərbaycan Qarabağın böyük hissəsini (azı 70 faizini) itki vermədən, dağıdılmadan əldə etdi.

İlham Əliyevin güclü sərkərdəlik qabiliyyəti, böyük siyasi-diplomatik təcrübəsi, ağıllı iqtisadi strategiyası sayəsində həm döyüş meydanında, həm də siyasi meydanda qələbə əldə olundu.

Bu Qələbənin əhəmiyyətini saymaqla bitməz. Qarabağın azad olunmasının ölkəmizə verəcəyi böyük iqtisadi faydalar isə tamam başqa yazının mövzusudur və bu məsələləri əvvəlki yazılarmızda qeyd etmişik.

**Sülh razılaşmasında nələr əldə etdik?**

İşğal olunmuş Qarabağın bütün ərazisi faktiki olaraq da Azərbaycan tərkbinə qayıdır. Keçmiş Dağlıq Qarabağ vilayətinə aidiyyatı olmayan 4 rayon (Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan) tamamilə, keçmiş vilayətə daxil olan Hadrut rayonu (indiki Xocavəndin yarısı) və Şuşa şəhəri tamamilə, keçmiş Martuni və Ağdərə rayonlarının da bir hissəsi işğaldan azad edilib, 3 rayon da sülhlə geri qaytarılır (Ağdam, Laçın, Kəlbəcər).

Cənab Prezidentin çıxışında adı çəkilməyən rayonlardan bəziləri rayon kimi mövcud deyil, məsələn, Ağdərə rayonu ləğv edilərək ərazisi Kəlbəcər, Ağdam və Tərtər rayonlarına verilib. Əsgəran rayonu da yoxdur, ləğv olunub. Hətta keçmişdə ermənilərin yaşadığı 2 rayon- Martini və Hadrut da yoxdur, bunlar hazırda bir rayonda birləşib Xocavənddə.

Bəzi rayonların adları ona görə xüsusi çəkilir ki, onlar əhalidən də tam boşaldılmalıdır. Söhbət ermənilərin sonradan köçdükləri, vaxtilə yalnız azərbaycanlıların yaşadığı rayonlardan gedir. İlk növbədə bu rayonların azərbaycanlı əhalisi öz evlərinə qayıdacaq. Ermənilərin vaxtilə yaşadığı bəzi rayonlardan isə mülki erməni əhalisi qovulmur, yaşamalarına icazə verilir, Azərbaycan vətəndaşı kimi, Azərbaycan qanunlarına tabe olaraq.

Yerli ermənilərin azərbaycanlılarla qarışıq yaşaya biləcəkləri çox kiçik ərazi qalır- Xankəndi şəhəri və ətrafı, Ağdərə (keçmiş Mardakert) rayonunun çox hissəsi, Xocavənd rayonunun yarısı (keçmiş Martuni rayonu). Ermənilər cəmi 3 min kv km-lik ərazidə yaşaya bilərlər. Qarabağın azad edilmiş 15 min kv km-lik ərazisinin yalnız 3 min kv km-də, yəni beşdə birində- 20 faizində. O da bizimlə qarışıq halda.

Laçın koridorunun heç bir xüsusi statusu olmayacaq, bura Azərbaycan ərazisidir. Sadəcə, ermənilərin Qarabağın dağlıq hissəsində yaşadıqları ərazidən Ermənistana və əksinə təhlükəsiz gediş-gəlişi təmin ediləcək. Buna görə də, Ermənistan bizə Naxçıvana koridor verir və ölkəmizin bütünlüyü birbaşa əlaqə cəhətdən təmin olunur. Bu yol həm də Türkiyə ilə Azərbaycanı, Rusiyanı, Orta Asiya ölkələrini birləşdirən mühüm quru yolu olacaq.

**Qarabağda etnik balans necə olacaq?**

Münaqişə başlamamışdan əvvəl Qarabağın bölgəsinin ümumi əhalisinin 76 faizi azərbaycanlılar, 23 faizi ermənilər olub. Qarabağ bölgəsindən qovulmuş 700 mindən artıq azərbaycanlı köçkün öz yurdlarına qayıdır. Bunların bir hissəsi də ermənilərin yaşamasına icazə verilən yerlərdə- keçmişdə yaşadıqları şəhər və kəndlərdə məskunlaşacaq. Yəni, ermənilərin yaşadığı bu kiçik ərazi hər tərəfdən Qarabağa qaytarılacaq 1 milyona yaxın azərbaycanlı ilə əhatə olunur.

Ermənilərin keçmiş vilayətdə sayı təxminən 120 min nəfər olub. Onların yarıdan çoxu keçən 30 ildə Amerika, Rusiya, Avropa ölkələrinə köçüb. Yerdə qalan 50-60 minlik erməni 1 milyona yaxın azərbaycanlının yaşadığı bölgədə yaşamalı olacaq, əlbəttə yaşamaq istəsə. Sonradan, Livandan, Ermənistandan, Fransadan... Qarabağa köçürülənlər bura aid deyil. Onlar Qarabağın yerli əhalisi olmadığına görə ərazini tərk etməli olacaqlar. Artıq bu böyük kütləvi köç başlayıb.

Ermənilərə yaşamaq icazəsi verilən bütün yaşayış məntəqələrində Azərbaycan hakimiyyəti bərpa ediləcək, Azərbaycan dövlət idarələri və ictimai təşkilatları, həmçinin hüquq-muhafizə orqanları fəaliyyət göstərəcək, Azərbaycan bayrağı dalğalanacaq, Azərbaycan qanunları hakim olacaq. Dövlət dili Azərbaycan dilidir.

**Vasitəçi və sülhməramlılar niyə vacibdir?**

Rusiya SSRİ-nin varisi və regionda nüfuz sahibi olan fövqəldövlət kimi münaqişənin həllində əsas rol oynamalı idi. Amerika və Fransanın aşkar və qəti şəkildə Ermənistanı müdafiə etməsi və Rusiyanın isə neytral mövqe tutması fonunda bundan yaxşı variant yox idi.

Ermənistanda Paşinyan hakimiyyətini Amerikanın rəngli inqilabla dövlət başına gətirdiyi və Vaşinqtondan idarə olunduğu məlumdur. Baydenin qatı ermənipərəst olması və demokratlar adı ilə tanınan qlobalistlərin Paşinyanın birbaşa ağaları olması Ermənistanın əlini gücləndirəcəkdi.

Rusiyanın mövqeyi və maraqları, hazırki situasiyada bizim tərəfimizdə idi. Bundan da məharətlə istifadə etdik. İndi Qarabağ həm deyure, həm de-fakto Azərbaycanındır.

Sülhməramlı kontingentin gəldikdə, bu missiyanın konkret vəzifə və səlahiyyət dairəsi olur. Hansı ölkələrin nümayəndələrindən ibarət olmasına baxmayaraq, BMT mandatı ilə, dəqiq təlimatla hərəkət edə bilərlər. Sülhməramlılar ordu deyil, bir növ müşahidəçi komissiyadır. Sülhməramlılar 5 il müddətinə Qarabağın kiçik bir hissəsində və Laçın dəhlizi boyu 5 km-lik hissədə yerləşdirilir və təhlükəsizliyin təmin olunmasına nəzarət edəcək.

Sülhməramlı missiyada Rusiya ilə yanaşı Türkiyə də iştirak edəcək. Bu isə qarşıya çıxan problemlərin 2 dost dövlət tərəfindən birgə həllini şərtləndirəcək. Missiyanın mövcudluğu ermənilərin sülhü və razılaşmanın şərtlərini poza bilməməsini, onların qanunlara riayət etməsini təmin edir...

Beləliklə, çox qısa müddətdə Azərbaycan problemi həll etdi və torpaqlarını qaytararaq ərazi bütövlüyünü bərpa etdi. Bu müharibədə Ali Baş Komandanımızın rəhbərliyi ilə ordumuz ön cəbhədə, bütün xalqımız da arxa cəbhədə döyüşdü. Xalqla dövlətin birliyi qalib gəldi. Qələbəmiz bir daha Mübarək!

***Elçin Bayramlı***




*Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi” istiqaməti çərçivəsində hazırlanıb*

SƏS
Qəzet 1991-ci il yanvarın 11-dən çıxır
13 noyabr
Son səhifə

# CANIM VƏTƏN DEYİR



Vüsal yanğısiyla çırpınır ürək,
Dodaq vətən deyir, dil vətən deyir.
Otuz illik həsrət sona varmada,
Ayaq vətən deyir, əl vətən deyir.

Dəniz dalğalanır, torpaq sivrilir,
Külək qanadlanır, bulud qıvrılır.
İşıq zəfər çalır, zülmət devrilir,
Şimşək vətən deyir, sel vətən deyir.

Söykənib dağ- dağa, kürək- kürəyə,
bağlanıb can- cana, ürək- ürəyə.
And içib xalqımız duza, çörəyə,
Oba vətən deyir, el vətən deyir.

Şairin qələmi, hər yaratdığı,
Əsgərin tüfəngi, hər bir atdığı.
Adaxlı gənclərin əldə tutduğu-
çiçək vətən deyir, gül vətən deyir.

Haqqı qorumaqda utanma Əlyar,
Qoşul bu kərvana, yubanma Əlyar.
İrəli addımla, dayanma Əlyar,
Cığır vətən deyir, yol vətən deyir.

***Əkbər Əlyar Həmidi ,***
***Təbrizli şair***

# "Arsenal" Məsut Özilin yerinə Yusuf Yazıcını transfer edir

***Fransanın "Lill" klubunun futbolçusu Yusuf Yazıcı komandasını dəyişə bilər. Belə ki, 23 yaşlı hücumameyilli oyunçunun İngiltərəyə köçmək variantı yaranıb.***

Türkiyə millisinin üzvünün "Lill"də sərgilədiyi parlaq oyun "Arsenal"ın diqqətini cəlb edib. London təmsilçisi onu Məsut Özilə layiqli əvəzləyici hesab edir. Həmçinin "Mançester Yunayted", PSV və "Lion" da Yazıcının çıxışını müntəzəm izləyir. Fransa klubu isə sərfəli təklif gələcəyi təqdirdə aparıcı oyunçusunu satmağın əleyhinə deyil.

Qeyd edək ki, bu mövsüm 12 oyunda 7 qola imza atan Yusuf Yazıcının "Lill" ilə müqavilə müddəti 2024-cü ilin yayına qədərdir



## Qazaxda qələbə günü münasibətilə tədbir keçirilib

27 sentyabr 2020-ci il tarixindən mənfur qonşularımızın təxribatının qarşısının alınması məqsədi ilə əks hücum əməliyyatını həyata keçirən Milli Ordumuzun uğurlu qələbəsi münasibəti ilə Qazax Rayon Qeydiyyat Şöbəsində tədbir keçirilib. Şöbənin rəisi Məsumə Səmədova çıxış edərək Azərbaycan xalqını təbrik edib. O qeyd edib ki, Azərbaycan ordusunun uğurlu əməliyyatı və ölkə prezidenti cənab İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində Azərbaycanın qədim torpaqları, tarixi abidələrimiz, ulu bablarımızın qəbirləri işğaldan azad edildi: "Mən səmimi qəlbdən hər kəsi Böyük Qələbə münasibəti ilə təbrik edirəm! Bizim çoxmillətli xalqımız, bu gün göstərdikləri qəhrəmanlıq şücaəti bizim və övladlarımızın yaddaşında əbədi qalacaqdır. Qəhrəmanlıq göstərərək həlak olan şəhidlərimizin xatirəsini yad etmək, Vətən müharibəsi iştirakçılarını və veteranlarını diqqət və qayğı ilə əhatə etmək bizim borcumuzdur. Cəsur qəhrəmanların bizə bəxş etdiyi sülh daim olsun. Arzu edirəm ki, tarixin bu parçası bir daha təkrarlanmasın və gələcək nəsillər müharibənin dəhşətlərini yaşamasın. Mən bütün şəhid ailələrinin və Qarabağın müdafiəsi uğrunda gedən savaşda iştirak edən bütün qardaşlarımızın qarşısında baş əyir və igidlik və mətinliyinizlə qazandığınız qələbə üçün sizə təşəkkür edirəm! Yaşasın Azərbaycan xalqı və Azərbaycan Ordusu! Uca Tanrı xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Artıq Qarabağ Azərbaycanındır!"




## Sətəlcəm zamanı daha tez sağalmağa kömək edən adi ərzaqlar

Medikamentoz müalicədən başqa digər müəyyən ərzaq məhsulları da sətəlcəm olan insanların daha tez sağalmasına kömək edə bilər. Sətəlcəm, ağciyər iltihabının təhlükəli həddə çatmasına səbəb olur. Bundan əlavə, bu xəstəlik kəskin respirator distressiya-sindromunun inkişafını sürətləndirir ki, bu da nəticədə COVID-19-un süni tənəffüs tələb edən ciddi forması kimi yaşlı və zəifləmiş insanlar arasında ölüm riskini artırır.



Anlamaq vacibdir ki, ev şəraitində heç bir özbaşına müalicə və hətta dünyanın ən faydalı ərzaq məhsulları sətəlcəmi müalicə edə bilmir. Onun müalicəsi üçün xüsusi müalicə strategiyası və müvafiq dərmanlar tələb olunur. Bununla belə, müəyyən qidaların rasiona daxil edilməsi, ilkin ağır mərhələdən sonra bərpa prosesinin sürətlənməsinə kömək edə bilər. AZƏRTAC "Medik-Forum" saytına istinadla sətəlcəm zamanı hansı adi ərzaq məhsullarının daha tez sağalmağa kömək etməyindən bəhs edir.

Bütöv buğda. B qrupunun vitaminləri ilə və karbohidratlarla zəngin olan kinoa, qəhvəyi düyü, yulaf, arpa orqanizmin bərpa olunmasına kömək edir. Bundan əlavə, orqanizmi enerji ilə təmin edən bu məhsulların tərkibindəki selenyum immun sistemini gücləndirir.

Zülalla zəngin olan qidalar. Pnevmoniyadan əziyyət çəkən insanlar iltihab əleyhinə xüsusiyyətlərə malik olan və zədələnmiş ağciyər toxumalarının bərpasına kömək edə biləcək qidalar: qoz, fındıq, tum, paxla, ağ ət, balıq yeməlidirlər. Yarpaqlı tərəvəzlər, salatlar və ispanaq tez sağalmaq üçün çox faydalıdır. Onlar iltihabla mübarizə aparan və orqanizmdəki yoluxucu maddələrin konsentrasiyasını azaldan antioksidantların zəngin mənbəyi sayılır.

S vitamini ilə zəngin olan sitrus meyvələri, giləmeyvələr, kivi immunitet sistemini gücləndirir, sətəlcəm zamanı orqanizmin bərpa prosesini sürətləndirir. Onların antioksidant komponentləri xəstəlik törədən mikroorqanizmləri məhv edə bilər.

Yoqurt. Bu sadə məhsul sətəlcəm xəstəliyini yaranmasına səbəb olan probiotiklərlə zəngindir. Qeyd edək ki, yoqurt həmçinin bağırsaqdakı faydalı bakteriyaların sayını artıraraq immun sistemini gücləndirir.

## Türkiyə millisi karantinə alındı

Futbol üzrə Türkiyə yığması Rivadakı Hasan Doğan adına Təlim-Məşq Bazasında karantinə alınıb. Buna səbəb millinin baş məşqçisi Şenol Güneş və bəzi futbolçuların noyabrın 11-də evdə Xorvatiya ilə yoldaşlıq matçında (3:3) qonaq komandanın koronavirusa yoluxmuş müdafiəçisi Domaqoy Vida ilə yaxın təmasda olmasıdır.

Yığma üzvləri, məşqçilər heyəti və digər işçilərin qarşıdakı oyunadək hər gün koronavirus testindən keçiriləcəyi bildirilib. Qeyd edək ki, UEFA Millətlər Liqasının beşinci turu çərçivəsində noyabrın 15-də Türkiyə millisi Rusiya yığmasını qəbul edəcək.

## Avropa çempionatında Azərbaycanı 10 gimnast təmsil edəcək

Dekabrın 9-dan 13-dək Türkiyənin Mersin şəhərində kişi idman gimnastları arasında 34-cü Avropa çempionatı keçiriləcək. AZƏRTAC xəbər verir ki, yarış iki - böyüklər və yeniyetmələr yaş kateqoriyası üzrə təşkil olunacaq.




Çempionatda böyüklərin yarışında ölkəmizi Murad Ağarzayev, Sərvər Əliyev, Cavidan Babayev, Ağamurad Qəhrəmanov və İvan Tixonov təmsil edəcəklər. Yeniyetmələrin mübarizəsində isə Anar Həsənov, Rəsul Əhmədzadə, Səməd Məmmədli, Mənsum Səfərov və Ramin Dəmirov medallar uğrunda yarışacaqlar. Çempionatda Olimpiya Oyunlarının qalibləri ilə yanaşı, qitə və dünya çempionatının mükafatçıları mübarizə aparacaqlar. Qeyd edək ki, Avropa çempionatında 19 ölkədən 120-dən artıq gimnast birincilik uğrunda gücünü sınayacaq.

## Başsağlığı

Şəhid gizir Quliyev Kamran Dadaş oğlu 2 ci Qarabağ müharibəsində , Füzuli istiqamətində gedən döyüşlərdə, qəhrəmancasına Şəhid olmuşdur. Şəhidin ailəsinə yaxınları, qohumları dərin hüzünlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin!***

***Baş redaktor:***
**Bəhruz Quliyev**
***Baş redaktorun müavinləri:***
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**